

"Türkiyə Azərbaycan qardaşlığı əbədiyyətə qədər davam edəcək"

6

# Müstəqil Azərbaycanın Naxçıvandan başlanan qurtuluş tarixi

3



*Tarixi şəxsiyyətlər mənsub olduğu xalqın yaddaşında hər zaman yaşayır. Ancaq elə şəxsiyyətlər də var ki, onların xidmətləri daha fenomenal xarakter daşıyır. Bu mənada xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi fəaliyyəti, sadəcə, bir ölkə üçün yox, həm də bəşəri dəyərləri ilə seçilir. 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən fövqəladə sessiyada deputatların və iclas zalının qarşısına toplaşan minlərlə insanın təkidi ilə xalqımızın xilaskarı, müstəqil Azərbaycan Respublikasının...*

Səs
№ 157 (6598) 1 sentyabr 2022-ci il. Qiymәti 60 qəpik

# Brüssel görüşü: İlham Əliyev diplomatiyasının növbəti uğuru!

2



## "Siyasi partiyalar arasında sağlam münasibətlər mühitinin yaradılması çox önəmlidir"



6

## Özünüməşğulluq proqramından kimlər istifadə edə bilər?



8



"KİV-in ictimai rəyə, cəmiyyətə təsir imkanları çox genişdir"

10

## Bəhruz Quliyev: "İnformasiya resursları sağlam rəqabət aparmalıdırlar"

4



*"İnformasiya resursları tərəfindən xəbərlərin ilk mənbədən toplanması, istehsalı və yayılması prosesinin özünəməxsus üslub və qaydaları var.*



"ABŞ və Fransa səfirlərinin iştirak etməməsi həqiqətən utancverici bir hadisədir"

6

16



Zeytun yağı istənilən növ xərçəng riskini 31 faiz azaldır



## Ermәni generalının həbsi: Paşinyan günah keçisi axtarışında?

13

*Məlum olduğu kimi, "Qarabağdakı separatçı qüvvələrin rəhbərinin "baş müşaviri", keçmiş "müdafiə naziri" Mikayel Arzumanyanı Şuşaya görə həbs ediblər.*



## Azərbaycan Avropa ölkələri arasında ən çox hara və nə ixrac edir?

4

*"Azərbaycan üçün əsas xarici ticarət tərəfdaşları hazırkı şəraitdə Avropa İttifaqı ölkələri və Avropa İttifaqıdır.*



# Brüssel görüşü: İlham Əliyev diplomatiyasının növbəti uğuru!

ANALİZ

***Son illər Azərbaycanla Avropa İttifaqı arasında münasibətlər yeni inkişaf mərhələsinə yüksəlib. Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin dəstəyi ilə Brüsseldə keçirilən görüşlərin Azərbaycanın maraqları baxımından dəstək verilməsi və Ermənistana razılaşmalara əməl edilməsi mesajlarının verilməsi bu qurumun ədalətli mövqe sərgilədiyini göstərir.***

Brüsseldə baş tutan görüşlərdə postmünaqişə mərhələsində bölgənin inkişafı ilə bağlı Azərbaycanın hər zaman çıxış etdiyi prinsiplər, o cümlədən 2020-ci ilin 10 noyabr Bəyanatının müddəalarına tam riayət olunması, tərəflər arasında sülh və etimadın təşviq olunması üçün humanitar addımların davam etdirilməsi, iki dövlətin sərhədinin delimitasiya və demarkasiyası üçün konkret addımların atılması, nəqliyyat və kommunikasiyaların açılması məsələləri geniş müzakirə edilib və müvafiq qərarlar qəbul olunub. 2021-ci il noyabrın 26-da Soçi görüşündən sonra həmin ilin 14-15 dekabrında təşkil olunan Brüssel səfəri çərçivəsində ilk üçtərəfli görüş, onun ardınca ölkə rəhbərinin 2022-ci il aprelin 6-da Belçikaya səfəri ilə Brüssel sülh gündəliyinin əsası qoyulub. Bu görüşlərin nəticəsi olaraq sülh müqaviləsi üzrə danışıqlara başlanılması, işçi qrupun yaradılması, Azərbaycanın irəli sürdüyü 5 maddədən ibarət təklif və digər məsələlər ölkəmizin ərazi bütövlüyünün, regionda sülh və əmin-amanlığın tam təmin olunmasına hesablanıb. Cərəyan edən proseslər də onu göstərir ki, Avropa İttifaqı Cənubi Qafqazda yaranmış yeni geosiyasi reallığı qəbul edir.

### Növbəti görüş, növbəti diplomatik qələbə

Avqustun 31-də Azərbaycan Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında görüş keçirilib. Bu, Azərbaycanın Zəfəri ilə başa çatan 44 günlük Vətən müharibəsindən sonra Prezident İlham Əliyev və Ermənistanın baş naziri arasında keçirilən sayca yeddinci görüş idi. Görüşdə humanitar məsələlər, o cümlədən mina problemi, Birinci Qarabağ müharibəsində itkin düşmüş azərbaycanlılar, kütləvi məzarlıqlar barədə məlumat verilməsi, Ermənistanda Azərbaycan xalqına məxsus tarixi-mədəni abidələrlə bağlı mövcud vəziyyət və s. görüşdə müzakirə edilən əsas məsələrdən olub.Qeyd edək ki, bundan əvvəlki Brüssel görüşləri çox vacib nəticələrlə yekunlaşdı. Azərbaycan Brüssel görüşlərində bu uğurları Prezident İlham Əliyevin qətiyyəti və prinsipial mövqeyi nəticəsində əldə etdi. Sözsüz ki, Azərbaycan liderinin düşünülmüş siyasəti nəticəsində növbəti Brüssel qələbəsi qaçılmazdır.Brüsseldə əldə olunmuş razılaşmada bir daha "Dağlıq Qarabağ" ifadəsi keçmir və keçmişin qalığı olan ATƏT-in Minsk qrupu həmsədrlik institutuna istinad yoxdur. Sözügedən fakt da onu göstərir ki, Avropa İttifaqı 44 günlük müharibədən sonra yaranmış yeni geosiyasi reallığı qəbul edir və öz mövqeyində yaranmış yeni reallığa əsaslanır. Münaqişə həll olunduğuna görə ATƏT-in Minsk qrupu lazımsız təsisata çevrilib. Avropa İttifaqının dəstəyi ilə Ermənistan və Azərbaycan arasında birbaşa danışıqları nəzərdə tutan yeni mexanizm və format yaranıb.

### Ermənistan reallıqları qəbul etməlidir

Brüssel görüşü Azərbaycanın milli maraqlarının təmin olunması istiqamətində Prezident İlham Əliyevin yürütdüyü müdrik və ardıcıl siyasətin növbəti böyük uğurudur. Bu görüşdə qəbul edilən və ölkəmizin maraqlarına tamamilə uyğun olan qərarlar Azərbaycan Prezidentinin dünyada böyük nüfuzunun göstəricisidir. Dövlət başçısı İlham Əliyevin çıxışlarında səsləndirdiyi "Biz sülh istəyirik, müharibə istəmirik. Biz müharibəni udduq, biz qalibik və bu reallıq nəzərə alınmalıdır. Dağlıq Qarabağ münaqişəsi həll olunub. Dağlıq Qarabağın qondarma statusu ilə bağlı və ya buna bənzər hər hansı müzakirələrə qayıdış yoxdur" bəyanatında da bu çağırışlar özünü aydın şəkildə göstərir ki, Ermənistan reallıqları qəbul etməli, bölgə dövlətləri arasında münasibətlər bu reallıqlar əsasında qurulmalıdır və başqa çıxış yolu yoxdur, çıxış yolu Azərbaycanla hesablaşmaqdır. Əks təqdirdə bu ölkə yenə də acınacaqlı duruma düşəcək. Avqustun 3-də keçirilən "Qisas" əməliyyatı ilə bird aha Azərbaycan göstərdi ki, heç bir halda güzəştə getməyəcək, təxribatlara da sərt və qtiyyətli cavab verəcək. Nəzərə alamaq lazımdır ki, "Qisa" əməliyyatından az sonra Laçın şəhəri, Zabux və Cus kəndləri Azərbaycanın nəzarətinə verilməsi təmin olundu. Hər hansı təxribat və ya 10 noyabr 2020-ci razılaşmasından və ya Brusseldə əldə olunan razılaşmalardan imtina Ermənistan üçün acı və faciəli sonluqla bitə bilər.

***Rəfiqə***

# XİN: "Azərbaycan öz öhdəliklərini yerinə yetirməyə tam sadiqdir"

Xarici İşlər Nazirliyi Azərbaycanın onuncu - on ikinci dövri hesabatlarına dair İrqi Ayrı-seçkiliyin Ləğv edilməsi üzrə Komitənin yekun müşahidələri ilə bağlı bəyanat yayıb. Bəyanatda qeyd olunur ki, Azərbaycan Respublikası hökuməti İrqi Ayrı-seçkiliyin Bütün Formalarının Ləğv edilməsi haqqında Konvensiya (CERD) üzrə Komitənin bu yaxınlarda keçirilən sessiyasında iştirak etməkdən və Konvensiyaya uyğun olaraq onuncu - on ikinci dövri hesabatlarını Komitəyə təqdim etməkdən məmnunluq duyur: "Azərbaycan çoxsaylı müxtəlif etnik, mədəni və dini qruplardan ibarət bir ölkə kimi onunla eyni multikultural dəyərləri təşviq edən CERD çərçivəsində öz öhdəliklərini yerinə yetirməyə tam sadiqdir.



Komitənin Azərbaycanın hesabatları ilə bağlı son yekun müşahidələrində qeyd edildiyi kimi, Azərbaycan CERD-in irqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi ilə bağlı məqsədinə çatmaq üçün müsbət addımlar atıb. Məsələn, 2017-ci ildən Azərbaycanda qaçqınların və vətəndaşlığı olmayan şəxslərin, eləcə də hər irqdən, etnik mənsubiyyətdən olan uşaqların hüquqlarını təmin etmək üçün Azərbaycan bir sıra hüquqi və siyasi tədbirlər həyata keçirib. 2018-ci ildə Azərbaycanda ədliyyə sisteminin inkişafı üzrə Dövlət Proqramı qəbul edilib və onun məqsədi tərəfdaş ölkələrlə təlimlər və mübadilələrin həyata keçirilməsi də daxil olmaqla, məhkəmə sisteminin səmərəliliyini və keyfiyyətini artırmaqdır. Azərbaycan, həmçinin Komitənin bəzi tövsiyələrini özündə əks etdirən "İrqi ayrı-seçkiliyin qarşısının alınması və ləğv edilməsi haqqında" qanun layihəsinin qəbul etməklə ayrı-seçkiliyə qarşı öz daxili qanunvericiliyini daha da gücləndirməyə çalışır.

CERD Komitəsi, həmçinin Azərbaycanın irqi ədavətin qızışdırılmasına qarşı mövcud qanunlarını gücləndirmək üçün atdığı addımları, xüsusilə də Azərbaycan Cinayət Məcəlləsinin 283-cü maddəsinə və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanuna dəyişiklikləri vurğulayıb. CERD Komitəsi xüsusilə qeyd edib ki, bu düzəlişlər etnik, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin qızışdırılmasına görə daha sərt cəzalar tətbiq edir, zorakılıq və dini ekstremizmi təbliğ edən bu cür amillərin və məlumatların internet və sosial mediada yayılmasını qadağan edir.

Azərbaycan CERD-in pozuntularına görə məsuliyyətin təmin edilməsi, o cümlədən mümkün pozuntularla bağlı cinayət təhqiqatının başlanması və bunun üçün kifayət qədər əsas olduqda ehtimal olunan təqsirkarların cinayət məsuliyyətinə cəlb edilməsi üçün birgə səy göstərib. Bundan əlavə, Azərbaycan CERD tərəfindən qorunan əsas dəyərlərə sadiqdir və hər hansı milli və ya etnik qrupa qarşı nifrət və ya zorakılığı təşviq edən bəyanat və ya hərəkətləri qəbul etmir.

Azərbaycan etnik, dini və ya mənsubiyyətindən asılı olmayaraq, müvafiq qanunlar və Konstitusiya ilə müəyyən edildiyi kimi, ayrı-seçkiliyə yol verilmədən, o cümlədən azad edilmiş ərazilərdə mədəni, dini və tarixi irsin qorunmasında beynəlxalq standartlara riayət etməklə mədəni irsin qorunmasına sadiqdir."

# Müstəqil Azərbaycanın Naxçıvandan başlanan qurtuluş tarixi



***Tarixi şəxsiyyətlər mənsub olduğu xalqın yaddaşında hər zaman yaşayır. Ancaq elə şəxsiyyətlər də var ki, onların xidmətləri daha fenomenal xarakter daşıyır. Bu mənada xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi fəaliyyəti, sadəcə, bir ölkə üçün yox, həm də bəşəri dəyərləri ilə seçilir. 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən fövqəladə sessiyada deputatların və iclas zalının qarşısına toplaşan minlərlə insanın təkidi ilə xalqımızın xilaskarı, müstəqil Azərbaycan Respublikasının qurucusu və memarı, ümummilli liderimiz Heydər Əliyev Ali Məclisin Sədri seçilməklə, qədim Naxçıvanda milli qurtuluşun, milli dövlətçiliyin təməli qoyuldu.***

### Ulu Öndər: "Belə çətin dövrdə geri çəkilsəm, bu, xalqın ağır günündə qaçmaq deməkdir"

1991-ci ilin 3 sentyabr tarixi yenicə müstəqilliyini qazanmış Azərbaycanın müasir tarixində, sadəcə, sıradan bir təqvim günü deyildi. Bu tarix 70 ildən çox müstəqillik arzuları ilə yaşayaraq onu bərpa edən, lakin qısa bir zamanda bu azadlıq duyğularını itirmək qorxusu ilə üzləşən, xaos və anarxiya burulğanında çırpınan bir xalqın yenidən özündə böyük güc taparaq Böyük Lideri ilə böyük bir mübarizəyə başladığı gün idi. Bu, elə bir dövr idi ki, ölkəmizin əsas torpaqlarından ayrı düşmüş Naxçıvanın ətraf aləmlə bütün kommunikasiya-nəqliyyat əlaqələri kəsilmiş, insanların sabahkı günə inamı qalmamışdı. İnsanların yeganə təsəllisi ulu öndər Heydər Əliyevin Naxçıvanda olması idi. Buna görədir ki, Ümummilli Lider Naxçıvanın, ümumilikdə isə Azərbaycanın gələcəyi baxımından əlamətdar olan bu gün haqqında danışarkən deyirdi: "Bu zamanın, bu dəqiqələrin, bu saatın hökmünü nəzərə almaya bilməzdim... Xalqın bu əhval-ruhiyyəsini, tələblərini nəzərə alaraq bütün məsələləri götür-qoy etdim. Yəqin etdim ki, mən öz prinsiplərimə sadiq qalaraq, eyni zamanda indi Azərbaycanın, Naxçıvanın belə vəziyyətində, çətin günündə, dövründə mənim üzərimə nəinki deputatların, binanın qarşısında, ətrafına toplaşan naxçıvanlıların qoyduqları vəzifənin icrasından geri çəkilsəm, bu, xalqın ağır günündə qaçmaq deməkdir... Mən öz taleyimi xalqa tapşırmışam və xalqın iradəsini, yəqin ki, indi bu müddətdə, bu çətin dövrdə yerinə yetirməliyəm".

### Prezident İlham Əliyev: "O illərdə də Ulu öndər qətiyyət, cəsarət, öz xalqına, öz millətinə nə qədər bağlı olduğunu göstərmişdir"

Bəli, 1990-cı il noyabrın 17-də Naxçıvan parlamentinin yeni tərkibdə keçirilən ilk sessiyası deputatların istəyi və böyük təkidi nəticəsində ümummilli lider Heydər Əliyevin Sədrliyi ilə öz işinə başladı. Sessiyada gündəliyə çıxarılan məsələlər və qəbul edilən tarixi qərarlar, ümumilikdə, Azərbaycanın müstəqilliyinə və suverenliyinə hesablanmışdı. Azərbaycan Prezidenti İlham Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin həmin dövrdə qəbul etdiyi qərarların tarixi əhəmiyyətindən danışarkən deyib: "O illərdə nəinki Naxçıvan üçün, Azərbaycan üçün də tarixi qərarlar qəbul edilmişdir. ...O vaxt Naxçıvanın adı dəyişdirildi. Ulu öndərin təklifi ilə "sovet sosialist" sözləri muxtar respublikanın adından çıxarıldı. Naxçıvanda ilk dəfə olaraq 1990-cı illərdə Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi qəbul edildi və Azərbaycanın Ali Soveti qarşısında vəsatət qaldırıldı ki, Azərbaycan dövləti də bu bayrağı rəsmi dövlət bayrağı kimi təsdiq etsin. 1991-ci ildə Sovet İttifaqının saxlanması üçün keçirilən qanunsuz referendumda Naxçıvan iştirak etməmişdir. Yəni bu addımlar ondan sonrakı dövrdə Azərbaycanın dövlət müstəqilliyini şərtləndirdi. O illərdə də Ulu öndər qətiyyət, cəsarət, öz xalqına, öz millətinə nə qədər bağlı olduğunu göstərmişdir. Bir daha göstərmişdir ki, Onun üçün dövlət maraqları, Azərbaycanın maraqları hər şeydən üstündür". Göründüyü kimi, blokada vəziyyətinin yaratdığı çətinliklərə sinə gərən, düşmən təcavüzünə qarşı rəşadətlə müqavimət göstərən naxçıvanlılar Ulu öndər Heydər Əliyevə böyük məhəbbət bəsləyir, Ona güvənirdilər. Çünki Vətənə sədaqətlə xidmət nümunəsi göstərən dahi şəxsiyyət də öz xalqına güvənir, Ona arxalanırdı və həmişə xalq üçün yaşamış, xalq üçün fəaliyyət göstərmiş və doğma Vətəni uğrunda canını belə əsirgəməyəcəyini dəfələrlə bəyan etmişdi. 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildikdən sonra sessiyadakı ilk çıxışında Ulu öndər öz taleyini xalqa tapşırdığını bildirərək deyirdi: "Mən bu zamanın, bu dəqiqələrin, bu saatın hökmünü nəzərə almaya bilməzdim. ... Mən öz prinsiplərimə sadiq qalaraq Azərbaycanın, Naxçıvanın belə vəziyyətində, çətin günündə, dövründə mənim üzərimə düşən vəzifənin ifasından geri çəkilə bilməzdim. Mən öz taleyimi xalqa tapşırmışam və xalqın iradəsini indi bu müddətdə, bu çətin dövrdə yerinə yetirməliyəm". Bəli, həmin illərdə dünya şöhrətli siyasətçi Heydər Əliyev Ali Məclisin Sədri kimi ilk növbədə üç tərəfdən düşmən hücumuna məruz qalan Naxçıvanın müdafiə qabiliyyətinin gücləndirilməsinə xüsusi diqqət yetirdi. 1991-ci il sentyabrın 7-də Ali Məclis Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin yaradılması haqqında qərar qəbul etdi. Bu qərar Naxçıvanın müdafiəsinin gücləndirilməsi istiqamətində atılan ilk addım oldu. Sonrakı dövrlərdə qəbul edilmiş tarixi qərarlarla Naxçıvanda yerləşən sovet qoşunlarına məxsus hərbi texnika və silahların hamısının muxtar respublikada saxlanması təmin olundu, muxtar respublikada Milli Ordu yaradıldı, Naxçıvanın müdafiə potensialı gücləndirildi, bugünkü qüdrətli Azərbaycan Ordusunun əsası Naxçıvanda qoyuldu.

### Zərurətdən yaranan YAP tarixi missiyalarını ləyaqətlə yerinə yetirir

Xalqımızın və dövlətimizin taleyinin həll olunduğu bir dövrdə 1992-ci ilin noyabrında sosial sifariş olaraq meydana atılan Yeni Azərbaycan Partiyası ölkəmizdə qurtuluş və tərəqqinin simvolu kimi qəbul edilməklə bərabər, həm də Azərbaycan vətəndaşlarının mütləq əksəriyyətinin siyasi istinad mənbəyidir. 1992-ci ilin aprel ayında xalqın iradəsinin ziddinə qəbul edilmiş bu antidemokratik addıma etiraz olaraq müxtəlif aksiyalar, imzatoplama kampaniyaları keçirilirdi. Ziyalılar, sadə insanlar Naxçıvan Muxtar Respublikasına üz tutaraq 1992-ci il oktyabr ayının 16-da Ulu Öndər Heydər Əliyevə Yeni Azərbaycan Partiyasının yaradılması xahişi ilə müraciət etdilər. Oktyabrın 24-də Ulu Öndərin ziyalıların müraciətinə məktubla verdiyi müsbət cavab Heydər Əliyevin yaranmış vəziyyətdə böyük məsuliyyəti üzərinə götürməkdən çəkinməyən, cəsarətli və qətiyyətli lider olduğunu bir daha təsdiqlədi. Qeyd edək ki, müraciətlər "SƏS" qəzetində dərc olundu. Ulu Öndər Heydər Əliyevin Azərbaycanın xilası naminə YAP-a rəhbərlik etməyə razılıq verməsi onun böyük siyasətə qayıdışının əsasını qoydu. 1992-ci il noyabrın 21-də 550 nəfərdən ibarət təşəbbüs qrupu Naxçıvanda təsis konfransını keçirdi, partiyanın proqram və nizamnaməsini qəbul etdi. Heydər Əliyev yekdilliklə partiyanın Sədri seçildi. Qısa bir müddətdə - Azərbaycan xalqı 1993-cü ilin oktyabrında Yeni Azərbaycan Partiyasının Sədri Heydər Əliyevə etimad göstərərək Onu özünün Prezidenti seçdi. Və bu gün ulu öndər Heydər Əliyev ideyaları Prezidentimiz, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Məhz bu səbəbdəndir ki, dünya şöhrətli dövlət xadimi, Ulu öndər Heydər Əliyev hələ 2003-cü ildə siyasi uzaqgörənliklə xalqa müraciətində hakimiyyət sükanının cənab İlham Əliyevə etibar olunmasını məsləhət bildi: "Üzümü sizə - həmvətənlərimə tutaraq qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir".Bununla da tarixi zərurətdən yaranan Yeni Azərbaycan Partiyası müstəqilliyimizin qorunmasında, dövlətçiliyimizin möhkəmləndirilməsində, tənəzzül etmiş iqtisadiyyatımızın inkişaf etdirilməsində və demokratik təsisatların bərqərar olunmasında siyasi flaqman rolunu hakim siyasi partiya olaraq öhdəsinə götürmüşdür.

### Ulu Öndərin arzuları reallığa çevrilib

Ölkəmizin ən böyük uğuru illərdir işğal altında olan torpaqlarımızın 2020-ci ildə azad edilməsi oldu. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə 44 günlük savaşdan sonra qazandığımız tarixi Qələbə həm də "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm", - deyən dahi şəxsiyyətin Azərbaycanla bağlı ən böyük arzusunun həyata keçdiyinin təsdiqi idi. Azərbaycan Prezidentinin "Onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim ki, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik", - sözləri isə bu təsdiqin əbədi möhürünə çevrildi. Böyük Zəfərin qazanılmasından sonra Naxçıvana gələn ölkə başçısının bu səfəri böyük tarixi əhəmiyyəti və rəmzi mənası ilə seçilirdi: "Bilirsiniz, tarixi Zəfərdən sonra bu, atamın birinci doğum günüdür. Ona görə mən hesab etdim ki, ənənəvi olaraq onun məzarını ziyarət edəndən sonra onun Vətəninə - Naxçıvana gəlim. Hesab edirəm ki, bu səfərin çox böyük rəmzi mənası var. Qeyd etdiyim kimi mən 15-ci dəfədir ki, Naxçıvana gəlirəm. Amma ilk dəfədir ki, mayın 10-da Naxçıvandayam. Bu doğum günündə mütləq burada olmalıydım..."

Bu gün Naxçıvanın əldə etdiyi çoxsaylı uğurları sadalamaqla qurtarmaq mümkün deyil. Böyük Öndərin "İstəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin" fikirləri bu gün artıq qədim diyarın real həyatında öz əksini tapıb. Amma bu da son deyil. 1991-ci il sentyabrın 3-dən başlayan Böyük Yol Naxçıvanı yaxın gələcəkdə daha Böyük Uğurlara aparacaqdır!

**RƏFİQƏ KAMALQIZI**

# “Siyasi partiyalar arasında sağlam münasibətlər mühitinin yaradılması çox önəmlidir”

*Prezident Administrasiyasında Yeni Yol Partiyasının sədri ilə görüş keçirilib*



***Avqustun 31-də Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev və yeni dövlət qeydiyyatına alınmış Yeni Yol Partiyasının sədri Ramil Hüseynov arasında görüş keçirilib. Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsindən SİA-ya bildiriblər ki, görüş zamanı şöbə müdiri Ədalət Vəliyev partiyanın dövlət qeydiyyatına alınması münasibətilə Ramil Hüseynovu təbrik edib və partiyaya fəaliyyətində uğurlar arzulayıb.***

Görüş zamanı vurğunlanıb ki, siyasi partiyaların cəmiyyətdə artan nüfuzu Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə aparılan köklü siyasi islahatların nəticəsidir. Yeni siyasi konfiqurasiyanın uğurla inkişaf etdirilməsi, iqtidar-müxalifət dialoqunun təşviqi bu islahatların tərkib hissəsidir.

İqtidar-müxalifət siyasi dialoqunun və siyasi partiyalarla sağlam əməkdaşlığın qurulması nəticəsində son iki ildə Yeni Yol Partiyası da daxil olmaqla 10 siyasi partiyanın dövlət qeydiyyatına alınması, siyasi partiyaların ofislə təmin edilməsi, partiyaların qurultaylarının keçirilməsi və təsis sənədlərində edilmiş dəyişikliklərin dövlət qeydiyyatına alınması, siyasi fəaliyyət üçün bütün lazımi şəraitin yaradılması görüşdə xüsusi vurğulanıb.

Qeyd edilib ki, yeni siyasi konfiqurasiya və ölkədə aparılan islahatların strateji hədəfləri ölkədə dayanıqlı demokratik ənənələrin dərinləşməsi, cəmiyyətin inkişafı naminə iqtidar-müxalifət münasibətlərinin konstruktiv əməkdaşlıq formatına transformasiyasıdır. Siyasi partiyaların cəmiyyətin siyasi həyatında vacib rol oynadığını vurğulayan Administrasiya rəsmisi qeyd edib ki, işğaldan azad edilmiş ərazilərdə Ermənistanın insanlıq əleyhinə törətdiyi cinayətlərin dünya ictimaiyyətinin diqqətinə çatdırılması üçün siyasi partiyalar öz beynəlxalq əlaqələrini inkişaf etdirməlidir. Siyasi partiyalar arasında sağlam münasibətlər mühitinin yaradılmasının vacibliyini qeyd edən şöbə müdiri bildirib ki, Vətən müharibəsi dövründə əldə edilmiş siyasi həmrəylik, siyasi partiyaların Ali Baş Komandan, Prezident İlham Əliyevin yanında olması, bununla bağlı birgə bəyanat və müraciətlərin imzalanması iqtidar-müxalifət dialoqunun nə qədər önəmli olmasını bir daha sübut etdi.

Şöbə müdiri siyasi sabitliyin əhəmiyyəti barədə danışaraq bildirib ki, radikal siyasi meyillər dövlətçiliyə olan təhdid kimi qiymətləndirilməlidir. Bu səbəbdən, hər bir siyasi partiya buna qarşı mübarizə aparmalı və cəmiyyətin ümumi inkişafına öz töhfəsini verməlidir. Həmçinin Milli Məclis tərəfindən ”Siyasi partiyalar haqqında” yeni Qanun layihəsinin hazırlanması zərurəti, partiyaların fəaliyyəti üçün yeni hüquqi bazanın formalaşmasının vacibliyi qeyd edilib.

Yeni Yol Partiyasının sədri Ramil Hüseynov görüş üçün təşəkkürünü bildirib və ölkədə aparılan siyasi islahatları yüksək qiymətləndirib. Siyasi partiyaların fəaliyyəti üçün bütün imkanların dövlət tərəfindən təmin edildiyini diqqətə çatdıran partiya sədri siyasi fəaliyyətində dövlətin təməl prinsiplərini əsas tutacağını söyləyib. R.Hüseynov bildirib ki, yeni siyasi konfiqurasiyanın inkişafı, ölkədə sağlam siyasi mədəniyyətin formalaşdırılması, iqtidar-müxalifət dialoqunun aparılması ölkəmizdə güclü siyasi sistemin yaradılmasına dəlalət edir. Bu səbəbdən Yeni Yol Partiyası həmin istiqamətdə sağlam münasibətlərin qurulmasında fəal iştirak edəcək.

# Bəhruz Quliyev: “İnformasiya resursları sağlam rəqabət aparmalıdırlar”

***“İnformasiya resursları tərəfindən xəbərlərin ilk mənbədən toplanması, istehsalı və yayılması prosesinin özünəməxsus üslub və qaydaları var. Kifayət qədər təcrübəsi, səriştəsi olan xəbər agentlikləri bu işin öhdəsindən asanlıqla gələ bilir. Xəbərlərin ilk mənbədən alınmasından oxucuya çatdırılmasına qədər olan prosesin bütün məsuliyyətini də daşıyır. Amma informasiya məkanında heç də hər media orqanı bu çətinliyin öhdəsindən gələ bilmir”. Bunu SİA-ya açıqlamasında SƏS Media Qrupun rəhbəri Bəhruz Quliyev deyib.***



B.Quliyev qeyd edib ki, ”Media haqqında” yeni qanunda da bu barədə kifayət qədər maddələr var ki, xəbər istehsalçıları sağlam rəqabət və ədalət prinsipini qorumaq şərti ilə bütün bunlara ciddi əməl etməlidirlər: ””Medianın İnkişafı Agentliyi” də informasiya istehsalı zamanı ortaya çıxan suallara cavab verən müxtəlif maarifləndirici tədbirlər həyata keçirir, videoçarxlar hazırlayır. Amma elə saytlar var ki, bütün göstəricilərinə - həm redaksiya kollektivinin sayına, həm texniki imkanlarına, həm də yetərli sayda informasiyanın hazırlanmasında problemlər yaşayır, qarşıya qoyulan tələblərin yerinə yetirilməsi üçün cəhdlər etmirlər. İşlərini yalnız başqa agentlik və saytların istehsal etdiyi xəbərləri mənimsəyərək, onu sosial şəbəkələrdəki səhifələrində tirajlayaraq oxucu sayını artırmaqla bitmiş hesab edirlər. Yeri gəlmişkən, onu da xüsusi olaraq qeyd edək ki, başqa saytlardan köçürülmüş xəbərlər sosial şəbəkələrdə ”sensasiya” adı altında paylaşıldığına görə, daha çox oxucu kütləsi toplaya bilir. Halbuki ciddi xəbər agentliklərinin saytlarında dərc olunan həmin xəbərin oxucusu bir o qədər olmur.

Bu da təbii ki, ədalətsizlik, qeyri-ciddi rəqabətdir. İnformasiya resursları sağlam rəqabət aparmalıdırlar. Ciddi informasiya resursarının istehsal etdiyi xəbərləri özününküləşdirərək müxtəlif variantlarla, o cümlədən sosial şəbəkələrin imkanlarından istifadə edərək oxucu sayını süni şəkildə artırmaqla reytinq toplamaq da sağlam rəqabət sayıla bilməz. Əsas məsələ informasiyanın olduğu kimi və vaxtında verilməsidir. Bu baxımdan ciddi informasiya resursları rəqabətdə öndə olmağa layiqdirlər. Neqativ hallara qarşı da tədbirlər görülməlidir. Media İnkişaf Agentliyinin informasiyaların sayı ilə bağlı tələbləri pozan saytlara qarşı hər hansı tədbir görməsi tam qanunauyğundur. Bu barədə artıq uzun müddətdir ki, danışılır, təşviqat xarakterli söhbətlər edilir. Əsas məqsəd də informasiya məkanını yeni xəbərlərlə zənginləşdirmək, media orqanlarında çalışanların peşəkarlıq səviyyəsinin artırılmasıdır. Yenə təkrar edirəm ki, bu, sağlam rəqabət üzərində qurulmalıdır”.

## “Qərar birlikdə verilibsə, məsuliyyətini redaksiyalar daşımalıdır”



“Media Agentliyinin 20 özəl yazının verilməsinin vacibliyi barədə verdiyi qanun redaksiyalarla birlikdə müzakirə olunub və qəbul edilib”. Bu sözləri SİA-ya açıqlamasında ”Bakı xəbər” qəzetinin baş redaktoru Aydın Quliyev bildirib. Baş redaktor qeyd edib ki, qanuna əsasən redaksiyalar gündəlik olaraq 20 özəl informasiya verməlidir: ”Təbii ki, bu normativ üzərində bütün redaksiyalar, baş redaktorlar və agentliyin işçiləri birlikdə çalışıb. Ümumi qərar nəticəsində də normativ qəbul olunub. Məhz bu səbəbdən qanunun yerinə yetirilməsində bütün redaksiyalar maraqlı olmalıdır. Həmçinin razılaşmanın şərtlərinə əməl edilməlidir. Mənim müşahidələrimə görə, əksər media orqanları bu normativə əməl edirlər. Düşünürəm ki, birgə qərar verilibsə, məsuliyyətini də bütün redaksiyalar daşımalıdır”.

***Banuçiçək Hüseynli***

# Azərbaycan Avropa ölkələri arasında ən çox hara və nə ixrac edir?

“Azərbaycan üçün əsas xarici ticarət tərəfdaşları hazırkı şəraitdə Avropa İttifaqı ölkələri və Avropa İttifaqıdır. Çünki məlum olduğu kimi, ölkəmizin xarici ticarətində ən böyük paya neft və qaz ixracatı malikdir. Bu istiqamətlər üzrə də son 10 illiklər ərzində Azərbaycan üçün əsas ixrac bazarı Aİ-dir”. Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı Elşad Məmmədov deyib.

Onun sözlərinə görə, Aİ-də əsas xarici ticarət tərəfdaşımız İtaliyadır: ”Çünki həmin bölgəyə enerji daşıyıcıları ixracatı ən iri həcmlidir. Bu nöqteyi- nəzərdən hazırda Avropa ölkələri əsas ixrac bazarı və ölkəyə daxil olan əsas valyuta mənbələri kimi çıxış edir”.



Elşad Məmmədov sözlərinə belə davam edib: ”Qeyd etmək lazımdır ki, enerji daşıyıcıları bazarında qiymətlər kəskin şəkildə bahalaşdı. Bu dünya iqtisadiyyatındakı böhran və Ukrayna ərazisindəki hərbi münaqişə ilə əlaqəlidir. Görünən odur ki, dünya iqtisadiyyatında siyasi müstəvidəki problemlər dərinləşməkdədir və yaxın aylarda biz qiymətlərin artan xətt üzrə inkişaf etməsini proqnozlaşdıra bilərik.

Qiymətlər artır və dəyişir. Sözsüz ki, bu bizi tam şəkildə qane edən mənzərə hesab oluna bilməz. Çünki ixracatın şaxələnməsinə, qeyri-neft və qeyri-xammal ixracatının payının artılmasına nail olmalıyıq. Amma hesab edirəm ki, bu hədəfləri reallaşdırdıqca bizim üçün daha prioritet istiqamətlər qonşu ölkələr olacaq. Çünki xarici ticarətin əsas amillərindən biri prioritet olaraq regional əməkdaşlığın və qonşu ölkələrlə xarici ticarətin inkişaf etməsi olmalıdır. Buna görə də biz xarici ticarət və ixracatı şaxələndirdikcə, ixracatda texnoloji məhsulların payının artırılmasına nail olduqca sözsüz ki, coğrafiyada xarici ticarət ixracat nöqteyi-nəzərədən dəyişəcək və prioritet qonşu ölkələr olacaq”.

***Ayşən Vəli***



# İLHAM ƏLİYEV: “Nə vaxt, nəyi, necə etmək lazımdır - bunu biz bilirik...”

*"Ermənistan heç vaxt bizimlə açıq döyüşdə qələbə qazana bilməyib və bilməz. Son günlər ərzində Azərbaycan Ordusu bir daha öz üstünlüyünü göstərdi. Biz lazım olan vaxtda - bu günlərdə yaradılmış əlavə imkanlardan, o cümlədən döyüş məntəqələrinin yeni yerləşməsindən istifadə edib öz sözümüzü deyəcəyik". Prezident, Ali Baş Komandan İlham Əliyev bu sözləri iki il əvvəl, 2020-ci il iyulun 15-də Nazirlər Kabinetinin iclasında çıxışı zamanı Ermənistan-Azərbaycan sərhədinin Tovuz rayonu istiqamətində düşmənin törətdiyi hərbi təxribatın qarşısının alınmasından bəhs edərkən demişdi.*

Prezident diqqətə çatdırmışdı ki, 2016-cı ilin Aprel döyüşlərində, 2018-ci ildə uğurlu Naxçıvan (Günnüt) əməliyyatında olduğu kimi, Tovuz döyüşləri də Azərbaycan Ordusunun qalibiyyət səhifəsidir. "O ki qaldı bizim addımlarımıza, lazım olan vaxtda lazım olan addımları atırıq və atacağıq. Mən hələlik bundan artıq heç nə demək istəmirəm, hadisələri qabaqlamaq istəmirəm... Nə vaxt, nəyi, necə etmək lazımdır, bunu biz bilirik. Hesab edirəm ki, yaxın tarix dəfələrlə bunu göstərib, həm siyasi müstəvidə, diplomatik müstəvidə, eyni zamanda, döyüş meydanında. Nəyi ediriksə, dəqiqliklə edirik. Son dörd il ərzində üç əməliyyat keçirilmişdir, üç toqquşma olmuşdur. Üçündə də qalib gəldik. Üçündə də bayrağımızı istədiyimiz yerə sancdıq. Üçündə də düşmənə sarsıdıcı zərbələr endirdik", - deyə dövlət başçısı bildirmişdi. Xatırladaq ki, 2020-ci ilin 12-14 iyul tarixində Ermənistan silahlı qüvvələrinin bölmələri dövlət sərhədinin Tovuz rayonu istiqamətində artilleriya qurğularından istifadə etməklə mövqelərimizi intensiv atəşə tutmuş və hücuma keçməyə cəhd göstərmişdi. Lakin görülən qəti tədbirlər nəticəsində düşmənə ciddi zərbə endirilmiş və ağır itki verərək geri oturdulmuşdu.

### Lazım olan vaxtda lazım olan addımları atacağıq

Tovuz döyüşlərindən təxminən iki ay yarım sonra düşmənin növbəti təxribatının qarşısını almaq üçün genişmiqyaslı əks-həmlə əməliyyatına başlayan rəşadətli Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində Ermənistan silahlı qüvvələrinə layiq olduğu yeri göstərdi. Ali Baş Komandanın "Nə vaxt, nəyi, necə etmək lazımdır, bunu biz bilirik. Lazım olan vaxtda lazım olan addımları atırıq və atacağıq" sözləri təsdiqini tapdı. Azərbaycan Ordusu Vətən uğrunda cəmi şəhidlərimizin qisasını döyüş meydanında alaraq, torpaqlarımızda otuz ilə yaxın sürən işğala son qoydu...

### 30 ilin əziyyəti, 30 ilin ümidsizliyi, 30 ilin əzabları xalqımızı sındırmadı, iradəmizə heç bir mənfi təsir göstərmədi

"30 ilin əziyyəti, 30 ilin ümidsizliyi, 30 ilin əzabları xalqımızı sındırmadı, iradəmizə heç bir mənfi təsir göstərmədi. Əksinə, biz daha da bütövləşdik, daha da mətinləşdik, daha da gücləndik, özümüzü toparladıq, dedik ki, artıq yetər, biz bu işğala dözməyəcəyik". Bu fikirləri Ali Baş Komandanımız, Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciətində deyib. Dövlətimizin başçısı deyib: "Nə vaxt, nəyi, necə etmək lazımdır, bunu biz bilirik. Hesab edirəm ki, yaxın tarix dəfələrlə bunu göstərib, həm siyasi müstəvidə, diplomatik müstəvidə, eyni zamanda, döyüş meydanında. Nəyi ediriksə, dəqiqliklə edirik. Son dörd il ərzində üç əməliyyat keçirilmişdir, üç toqquşma olmuşdur. Üçündə də qalib gəldik. Üçündə də bayrağımızı istədiyimiz yerə sancdıq. Üçündə də düşmənə sarsıdıcı zərbələr endirdik".

Bəli, işğalçı Ermənistan silahlı qüvvələrinin təxribatlarına cavab olaraq Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin "Dəmir Yumruq" siyasəti ilə 44 gün davam edən və Azərbaycanın tam Qələbəsi ilə nəticələnən Vətən müharibəsi qələbə ilə başa çatdı. 44 gün ərzində 5 şəhər, 4 qəsəbə, 286 kənd, çoxsaylı strateji yüksəkliklər işğaldan azad olundu, Silahlı Qüvvələrimiz Cəbrayıl, Qubadlı, Zəngilan, Füzuli rayonlarını, Xocavəndin böyük hissəsini, Laçın rayonunun kəndlərini işğaldan azad etdi. Uzun illərdən sonra doğma torpaqlarımızda yenidən üçrəngli şanlı bayrağımız ucaldıldı. 44 günlük Vətən müharibəsi Ali Baş Komandanın, Azərbaycan Ordusunun, xalqımızın zəfəri ilə başa çatdı. 44 günlük haqq savaşımız Azərbaycan tarixinə qızıl hərflərlə əbədi yazıldı. Bu qələbəni Ali Baş Komandanın qətiyyəti, siyasi iradəsi, müzəffər Ordumuzun şücaəti, qəhrəmanlığı, qorxmaz, cəsur əsgərlərimizin canı, müqəddəs, ölməz şəhidlərimizin qanı, xalqımızın birliyi hesabına qazandıq...

### Laçın həsrəti bitdi..

Bəli, dövlət başçımız nə vaxt, nəyi, necə etmək lazımdır, bunu Ali Baş Komandanımız, Prezident İlham Əliyev cənabları dəfələrlə göstərib. Və bu gün Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin siyasi uzaqgörənliyi, diplomatik bacarığı, ordumuzun rəşadəti sayəsində növbəti məqsədlərimizə nail oluruq. Bu gün artıq rəşadətli Ordumuzun gücü ilə Laçındayıq, Zabuxdayıq, Susdayıq! Vətənimizə, doğma Qarabağımıza qayıdırıq, eyni zamanda, Qarabağımızın əsrarəngiz guşəsi olan Laçına qayıdırıq və bu torpaqlarda əbədi yaşayacağıq. Noyabrın 10-da isə Azərbaycan, Rusiya prezidentləri, Ermənistanın baş naziri tərəfindən münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə bəyanat imzalandı. Bu bəyanata əsasən, dekabrın 1-dək Kəlbəcər, Ağdam və Laçın rayonları Azərbaycana təhvil verildi. Bununla da ermənilərin "Böyük Ermənistan" xülyasına birdəfəlik son qoyuldu. Lakin Laçın şəhəri, eləcə də rayonun Zabux, Sus kəndləri Rusiya sülhməramlılarının məsuliyyət zonasında yerləşdiyindən, bu ərazilərdə bərpa-quruculuq işlərinin aparılması təxirə salındı. Lakin avqustun 26-da Prezident, Ali Baş Komandan İlham Əliyevin siyasi qətiyyəti, uzaqgörənliyi, diplomatik bacarığı ilə Laçın şəhəri, Zabux və Sus kədlərinin sakinləri doğma yurd-yuvalarına qovuşdular. Bu gün təkcə laçınlılar deyil, bütün Azərbaycan xalqı sevinc, fərəh içindədir. Çünki Qarabağımızın əsrarəngiz guşəsi olan Laçın öz doğma övladlarını qarşılayır. Dövlət başçımızın dediyi kimi: "Nəyi ediriksə, dəqiqliklə edirik. O ki qaldı bizim addımlarımıza, lazım olan vaxtda lazım olan addımları atırıq və atacağıq. Mən hələlik bundan artıq heç nə demək istəmirəm, hadisələri qabaqlamaq istəmirəm... Nə vaxt, nəyi, necə etmək lazımdır, bunu biz bilirik. Hesab edirəm ki, yaxın tarix dəfələrlə bunu göstərib, həm siyasi müstəvidə, diplomatik müstəvidə, eyni zamanda, döyüş meydanında!".

**R.HÜSEYNOVA**

TƏHLİL

# “Ulu Öndərin Sədr seçilməsi Azərbaycanın müstəqillik yolunun əsasını qoymuşdur”



***"Görkəmli dövlət xadimi Heydər Əliyevin 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən fövqəladə sessiyada deputatların və iclas zalının qarşısına toplaşan minlərlə insanın təkidi ilə Ali Məclisin Sədri seçilməsi Azərbaycanın müstəqillik yollunun əsasını qoymuşdur". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Ülviyyə Həmzəyeva bildirib.***

Onun sözlərinə görə, Ulu Öndər Heydər Əliyevin gərgin fəaliyyəti və səyləri sayəsində muxtar respublikada sabitlik təmin edildi: ”Belə ki, müharibənin davam etdiyi, sənaye və ilkin tələbat mallarının, hətta ərzaq məhsullarının çatışmadığı, elektrik enerjisinin olmadığı, sosial-iqtisadi durumun kəskin pisləşdiyi blokada şəraitində Naxçıvan Ali Məclisinin Sədri seçilən ulu öndər Heydər Əliyev həyata keçirdiyi islahatlar, gördüyü tədbirlər və işlər sayəsində, ilk növbədə, Muxtar Respublikada sabitliyin, tərəqqinin və həmrəyliyin təmin olunmasına nail olmuşdur.

Blokada şəraitində olan Muxtar Respublikanın inkişafı və sabitliyinin davamlılığını təmin etmək üçün regional və beynəlxalq əlaqələrin formalaşdırılması, eləcə də inkişafı yönündə mühüm addımlar atıldı.

Məlumdur ki, ümummilli liderin həm SSRİ dönəmində, həm də müstəqillik illərində ölkəmizə rəhbərliyi dövrlərdə xalqın rifah halının daha da yaxşılaşdırılması, respublikamızın tərəqqisinin təmin olunması məqsədilə tarixi əhəmiyyət kəsb edən misilsiz işlər görmüşdür. Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, milli həmrəyliyimizi təmin edən azərbaycançılıq ideologiyasının banisi, xalqımızın və dövlətimizin xilaskarı, Ümummilli Lider Heydər Əliyevin fəaliyyəti, onun iradəsi ilə qəbul olunmuş qərarlar müstəqillik tariximizin ən parlaq səhifələrini təşkil edir.

Ulu Öndər Heydər Əliyevin tarixi təşəbbüslərindən Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət bayrağı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1990-cı il noyabrın 17-də keçirilən sessiyasında Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı olaraq təsdiq edilməsi idi. Ümummilli lider Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırmışdır və 1991-ci il fevral ayının 5-də həmin vəsatətə baxılmış və Azərbaycan Respublikasının Ali Soveti ”Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında” Qanun qəbul edərək onu yenidən Dövlət bayrağı elan etmişdir. Sonralar Ümummilli Lider bu barədə deyirdi:

”Mən belə fikirdəyəm ki, Naxçıvan MR Ali Məclisinin qəbul etdiyi qərarlar Azərbaycan Respublikasının işinə çox təsir etdi və Azərbaycan rəhbərliyi bir neçə belə qərarın qəbul edilməsində məcburiyyət qarşısında qaldı. Naxçıvan Muxtar Respublikasının üzərində bu bayraq 1990-cı il noyabrın 17-də, Azərbaycan Respublikasında isə 1991-ci il fevralın 5-də dalğalandı”.

Qətiyyətlə deyə bilərik ki, siyasi fəaliyyətinin Naxçıvan dövründə Ulu Öndər Heydər Əliyevin gördüyü işlər, atdığı tarixi əhəmiyyətli addımlar Muxtar Respublikanın qurtuluşunu, dirçəlişini və həmrəyliyini təmin etmiş oldu.

Ümummilli lider Heydər Əliyevin Ali Məclisin Sədri vəzifəsində işləyərkən dünya azərbaycanlılarını bir ideya ətrafında - Vətənə və xalqa xidmət uğrunda birləşməyə səsləməsi və 1991-ci il dekabrın 16-da Ali Məclis tərəfindən ”31 Dekabr Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü haqqında” Qərarın qəbul edilməsi xüsusi əhəmiyyətə, milli ideyaya xidməti və sədaqəti idi.

Ulu öndər Heydər Əliyevin ömrü xalqa həsr olunmuş ömür idi.

”Bu zamanın, bu dəqiqələrin, bu saatın hökmünü nəzərə almaya bilməzdim... Xalqın bu əhval-ruhiyyəsini, tələblərini nəzərə alaraq bütün məsələləri götür-qoy etdim. Mən öz taleyimi xalqa tapşırmışam və xalqın iradəsini, yəqin ki, indi bu müddətdə, bu çətin dövrdə yerinə yetirməliyəm” deyirdi Ulu Öndər.

Ümummilli lider deyirdi: ”Azərbaycanın bayrağı sadəcə bayraq deyil. O, bizim dövlətçiliyimizin, müstəqilliyimizin rəmzidir”.

Bu gün dövlətçiliyimizin, müstəqilliyimizin rəmzi olan müqəddəs üçrəngli bayrağımız müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev və qüdrətli ordusu sayəsində Qarabağda, Laçında, Şuşada və işğaldan azad edilmiş bütün rayon və şəhərlərimizdə dalğalanır”.

***Abutel İlhamqızı***

# “Türkiyə Azərbaycan qardaşlığı əbədiyyətə qədər davam edəcək”

***“Türkiyə və Azərbaycan arasında sarsılmaz dostluq və qardaşlıq münasibətləri tarix boyu mövcud olub. Xalqlarımız istər xoş günlərdə, istərsə də çətin vaxtlarda birlik nümayiş etdirib, bir-birinin sevincini və kədərini bölüşüb.***

Dövlətlərimiz və xalqlarımız aralarındakı doğma münasibətlər bütün məqamlarda özünü göstərib. Çanaqqala savaşında minlərlə igid azərbaycanlı yadellilərə qarşı döyüşlərdə iştirak edib. Bakının və bütöv Azərbaycanın erməni-daşnak-bolşevik işğalından qurtulması üçün Azərbaycana göndərilən Qafqaz İslam Ordusu böyük və şanlı tarix yazıb”. Bunu SİA-ya açıqlamasında Milli Məclisin deputatı Aydın Hüseynov deyib.



Millət vəkili bildirib ki, iki xalqın, dövlətin bu gün də bir yerdə olduğunu, biri-birini beynəlxalq miqyasda dəstəklədiyini sübut edən çoxsaylı dəlillər var: ”Azərbaycan Prezidenti İlham Əliyevin Avropa İttifaqının ”Şərq tərəfdaşlığı” Proqramının sammitində dediyi fikirlər bu gün də aktualdır. Prezidentin ”Bu masa arxasında Türkiyə nümayəndələri yoxdur. Ancaq mən buradayam” deməsi, dünyanın erməni işğalına reaksiya vermədiyi dövrlərdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın ”Qarabağ Azərbaycan qədər bizim də məsələmizdir” deyə bəyan etməsi reallıqları əks etdirir. Azərbaycana rəsmi səfəri çərçivəsində Milli Məclisdə söylədiyi nitqində R.T.Ərdoğan ”...Bu gün də Azərbaycanın yanındayıq və bütün dünya bilsin ki, daim Azərbaycanın yanında olacağıq. Necə ki, Çanaqqalada azərbaycanlı gənclər Anadolu gəncləri ilə birlikdə şəhadətə yürüyüb qələbə qazanmışdılarsa, necə ki, Nuru Paşanın aslanları 1918-ci ildə Azərbaycanın köməyinə gəlmişdilərsə, biz də bu gün və gələcəkdə bərabər olacağıq...” deməsi Azərbaycan-Türkiyə qardaşlığının sarsılmazlığının bariz nümunələridir. 2021-ci il iyunun 15-də Şuşada imzalanmış ”Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi” isə iki dövlət və onların xalqları arasındakı birliyin, doğmalığın, dostluğun və qardaşlığın növbəti təzahürü oldu. Böyük əhəmiyyətli mühüm tarixi sənəddən bəhs etməzdən əvvəl onun imzalanmasını şərtləndirən qürur dolu tarixə nəzər salmaq yerinə düşər. 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı, qətiyyətli sərkərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə mübariz xalqımız və rəşadətli ordumuz düşmən üzərində parlaq qələbə qazandı. Otuz ilə yaxın müddətdə işğal altında olan dədə-baba torpaqlarımız bu qələbə nəticəsində hərbi və siyasi-diplomatik yolla azad edildi, ölkəmizin ərazi bütövlüyü bərpa olundu. Qırx dörd günlük qürur dolu tarixin ilk günlərindən qardaş Türkiyə Azərbaycana siyasi-mənəvi dəstək verdi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan açıq və birmənalı bəyanatlar səsləndirərək, bu müharibədə Azərbaycanın tək olmadığını, Türkiyənin hər zaman dövlətimizin və xalqımızın yanında olduğunu bildirdi. Bu da təbii olaraq gücümüzə güc qatmaqla əldə etdiyimiz möhtəşəm tarixi qələbədə mühüm rol oynadı. Bu gün həm də qardaş Türkiyə tarixinin ən önəmli günlərindən birini - Zəfər bayramını qeyd edir. 1922-ci il avqustun 30-da Türkiyə ordusu Mustafa Kamal Paşanın komandanlığı altında Qurtuluş savaşının taleyini həll edəcək zəfər qazanaraq ölkənin cənub-qərbini yunan işğalından azad edib. Biz də bütün xalqımızı, qardaşlarımızı möhtəşəm tarixi hadisə - Zəfər Bayramı münasibətilə təbrik edir, dostluğumuzun, qardaşlığımızın əbədi olmasını arzulayıram. Yaşasın Azərbaycan-Türkiyə birliyi və qardaşlığı!”.

# “ABŞ və Fransa səfirlərinin iştirak etməməsi həqiqətən utancverici bir hadisədir”

“Şuşada keçirilən konfransda Amerika Birləşmiş Ştatlarının və Fransanın səfirlərinin iştirak etməməsi həqiqətən utancverici bir hadisədir. Çünki bu hadisələrdə uzun illər ATƏT-in Minsk qrupu çərçivəsində faliyyət göstərən ABŞ və Fransanın nümayəndələri heç bir iş görmədilər”. Bu fikirləri SİA-ya açıqlamasında politoloq Elşad Həsənov bildirib.



Onun sözlərinə görə, 28 il ərzində bir metr torpağın da azad olunmasına cəhd görtərmədilər: ”Ancaq bizim müzəffər ordumuz tərəfindən torpaqlarımız işğaldan azad olundular. Mədəniyyət paytaxtı elan olunan Şuşada keçirilən bu tədbirə onların etinasız yanaşması Prezidentin köməkçisi Hikmət Hacıyev tərəfindən çox doğru qeyd olundu. ABŞ səfirliyinin sözçüsü qeyd etdi ki, biz Azərbaycanı daim dəstəkləmişik, onun suverenliyini, müstəqilliyini və sülhün dayanıqlı olması üçün əlimizdən gələni edirik. Bəli bu da doğrudur. Amerika bizim suverenliyimizi tanıyır, dəstəkləyir. Ancaq bir şey var ki, Amerikada və Fransada çox böyük erməni lobbisi var və bu ölkələrdə seçilən prezidentlər də daima onların səsinə qulaq asırlar. Çünki Amerika və Frasadakı seçkilərdə səslər çox önəmli rol oynayır. Ona görə də erməni lobbisi öz səsi ilə Ermənistana diqqət ayırmalarını tələb edirlər. Bu da onun nəticəsidir. Bugünkü gündə Ermənistana dayaq olmaq istəmələri, Şuşada keçirilən konfransda iştirak etməməsi bu faktdan irəli gəlir. Bundan istifadə edib ABŞ və Fransa ilə ciddi bir mübarizə aparmağa ehtiyyac yoxdur. Diplomatik yolla başa salmaq lazımdır ki, biz öz ərazi bütövlüyümüzü təmin edirik. Yaxın zamanda onlar məcbur olub Şuşaya da, Xankəndinə də, Xocalıya da, Xocavəndə də gedəcəklər”.

***Abutel İlhamqızı***

# “Azərbaycanın hər bir uğuru Heydər Əliyev siyasətinin təntənəsidir”

## *1991-ci ilin 3 sentyabrı müstəqillik tariximizin ən parlaq səhifələrindən biridir*



***"Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin 3 sentyabr 1991-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsindən 31 il ötür. İllər keçdikcə bu tarixin ölkəmizin həyatında xüsusi yeri daha aydın görünür.***

Dahi şəxsiyyətin Sədr seçildiyi bu gün təkcə muxtar respublikanın deyil, bütövlükdə Azərbaycanın xilası kimi tarixə yazılıb. Bu fikirlərin o dövrün reallıqlarını tamamilə əks etdirdiyinə əmin olmaq üçün həmin illərdə görülən işlərin, atılan addımların, qəbul edilən qərarların xronologiyasına diqqət yetirmək kifayətdir. 1990-cı ildə sovet imperiyasının törətdiyi 20 Yanvar hadisələrinə münasibət bildirən Ulu Öndərin Azərbaycanın Moskvadakı nümayəndəliyində verdiyi bəyanatı vətəndaşlıq borcu, kommunist rejiminə qarşı etiraz, siyasi qətiyyət adlandıran Prezident İlham Əliyev müdrik siyasətçi Heydər Əliyevin Naxçıvandakı fəaliyyətini Azərbaycanın müstəqilliyə gedən yolunun başlanğıcı adlandırır. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət bayrağı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1990-cı il noyabrın 17-də keçirilən sessiyasında ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı olaraq təsdiq edildi. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırdı. 1991-ci il fevral ayının 5-də həmin vəsatətə baxıldı və Azərbaycan Respublikasının Ali Soveti ”Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında” Qanun qəbul edərək onu yenidən Dövlət bayrağı elan etdi. Bu bayraq Naxçıvan Muxtar Respublikasında 1990-cı il noyabrın 17-də, Azərbaycanda isə 1991-ci il fevralın 5-də qaldırıldı”. Bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə ümummilli lider Heydər Əliyevin Naxçıvan MR Ali Məclisinin Sədri seçilməsindən ötən 31 ili təhlil edərkən söyləyib.

Vüqar Rəhimzadə bu məqamı da xüsusi vurğulayıb ki, həmin illər muxtar respublikanın həyatında yeni dövrün başlanması kimi xarakterizə edilsə də, Azərbaycan o illərdə çox çətin günlərini yaşayırdı: ”Müstəqilliyini yenidən bərpa edən Azərbaycanın ilk illərdə yaşadıqları hər kəsə məlumdur və tariximizin qara səhifəsi kimi xarakterizə olunur. O vaxt Azərbaycanda hakimiyyəti silah gücünə zəbt edən AXC-Müsavat cütlüyü xalqın inamını tamamilə itirmişdi. Bu qaragüruhun antimilli siyasəti xalqda böyük hiddət doğururdu. Bacarıqsızlıq, qeyri-peşəkarlıq, hakimiyyət hərisliyi nəticəsində ölkə demək olar ki, idarəolunmaz vəziyyətə düşmüşdü. Ölkəmizi xaos, anarxiya bürümüşdü. Qeyri-qanuni silahlı birləşmələr küçələrdə əli silahlı gəzir, insanları incidirdilər. O illərdə ölkəmizi kütləvi rüşvətxorluq bürümüşdü. Torpaqlarımızın işğal altına düşməsi, iqtisadi, hərbi böhran demək olar ki, ölkəmizin gələcək müstəqil həyatına böyük təhlükə yaradırdı. Belə olan halda əlbəttə ki, xalq ümidini özünün əbədi lideri ulu öndər Heydər Əliyevə bağlamışdı”.

”Ümummilli lider Heydər Əliyevin Naxçıvandakı fəaliyyəti çox zəngin, ağır və eyni zamanda, şərəfli bir dövrü əhatə edir” söyləyən YAP Xətai rayon təşkilatının sədri qeyd edib ki, uzaqgörən siyasi xadimin Naxçıvandakı siyasi fəaliyyəti sonralar Azərbaycanın müstəqilliyinin bərpa edilməsində əsas rol oynamışdır: ”Ulu Öndərin Naxçıvanda çalışarkən xalq və dövlət qarşısında ən böyük xidmətlərindən biri insanlarda milli təfəkkür və milli məfkurənin formalaşdırılması idi. 1991-ci il dekabrın 16-da Ali Məclis tərəfindən ”31 Dekabr Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü haqqında” Qərarın qəbul edilməsi xüsusi əhəmiyyətə malik hadisə oldu. Blokada şəraitində yaşayan muxtar respublikanın inkişafının və sabitliyinin davamlılığını təmin etmək üçün regional və beynəlxalq əlaqələrin formalaşdırılması, eləcə də bu bölgənin gələcək tərəqqisi istiqamətində mühüm addımlar atıldı. Belə ki, qonşu İran və Türkiyə ilə əməkdaşlıq gücləndi, hər iki ölkədən muxtar respublikaya ərzaq, sənaye malları, ən başlıcası isə enerji verildi. Türkiyə ilə əlaqələrin möhkəmləndirilməsi üçün ”Ümid” körpüsü salındı. O vaxtlar paytaxt Bakı ilə yeganə nəqliyyat yolu hava limanı idi. Bakıda Naxçıvan nümayəndəliyi yaradıldı. Həmin illərin ən mühüm tarixi hadisələrindən biri bu gün milyonların partiyasına çevrilən, sıralarında 800 minə yaxın üzvü birləşdirən, yaxın zamanlarda 30 illik yubileyini qeyd edəcək Yeni Azərbaycan Partiyasının yaradılması oldu. Xalqın böyük əksəriyyətinin istəyini özündə ifadə edən 91 nəfər ziyalının ulu öndər Heydər Əliyevə yeni partiyanın yaradılması ilə bağlı ünvanladıqları ”Azərbaycan Sizin sözünüzü gözləyir” müraciəti, eyni zamanda, ulu öndər Heydər Əliyevin bu müraciətə ”Yeni müstəqil Azərbaycan uğrunda” cavabı həmin dövrün aydın mənzərəsini əks etdirir. Məhz yaranması Azərbaycanın ən çətin və mürəkkəb tarixi dövrünə təsadüf edən Yeni Azərbaycan Partiyası ötən bu illər ərzində tutduğu yola sadiqlik nümayiş etdirərək Heydər Əliyev ideyalarının fəal təbliğatçısı funksiyasını şərəflə yerinə yetirir. YAP müxalifət partiyası kimi yaradılsa da heç zaman dövlətə, dövlətçiliyə müxalifətdə olmamışdır. Dünya praktikasında belə bir məqama rast gəlinməyib ki, hansısa partiya yaranmasından keçən çox qısa müddət ərzində iqtidar partiyasına çevrilsin. Yeni Azərbaycan Partiyası məhz belə istisnalara malik olan yeganə partiyadır. Ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra nəinki ölkəmizin, eyni zamanda, Yeni Azərbaycan Partiyasının həyatında yeni mərhələnin əsası qoyuldu”.

Vüqar Rəhimzadə ulu öndər Heydər Əliyevin Azərbaycan dövləti, xalqı qarşısındakı misilsiz xidmətlərinin miqyasını bir yazı çərçivəsində əhatə etməyin mümkünsüzlüyünü önə çəkərək bildirib ki, bugünkü Azərbaycan Ümummilli Liderin görmək istədiyi Azərbaycandır: ”İstər ölkəmizdə hakimiyyətinin hər iki dövründə, istərsə də fəaliyyətinin Naxçıvan mərhələsində atdığı hər bir addımın təməlində Azərbaycanın müstəqil gələcəyi, xalqımızın azad, firavan həyatı dayanırdı. Azərbaycanı qüdrətli, zəngin, qalib ölkə kimi görmək dahi liderin ən böyük arzusu idi. O, bu arzunun xeyli hissəsini 1993-2003-cü illərdə müstəqil Azərbaycan dövlətinə rəhbərlik edərkən atdığı addımlar, düşünülmüş və məqsədyönlü siyasəti ilə reallığa çevirdi. Bu faktları qeyd etmək kifayətdir ki, Ümummilli Liderin müəllifi olduğu yeni neft strategiyası Azərbaycana böyük uğurlar qazandırıb. Azərbaycan dünyada etibarlı tərəfdaş kimi nüfuz sahibi olub. Dünyanın ən islahatçı ölkələri sırasında qərarlaşıb. Demokratik dəyərlərə sözdə deyil, əməldə sadiq olan ölkə kimi tanınır. Ən əsası sözünün imzası qədər dəyəri olduğunu dünyada cərəyan edən proseslərə təsir imkanları ilə təsdiqləyir. Çünki Azərbaycanın xarici siyasəti ədalətə və beynəlxalq hüquqa, eyni zamanda, heç bir dövlətin daxili işinə müdaxilə etməməyə əsaslanır. Həmçinin öz daxili işinə müdaxiləni də yolverilməz hesab edir. Bu fikir ən yüksək tribunalardan bəyan edilir ki, heç bir qüvvə Azərbaycan xalqının siyasi iradəsinə təsir etmək imkanında deyil. Həmçinin heç kim Azərbaycanla diktat dilində danışa bilməz. Azərbaycan siyasətində müstəqil olduğunu hər bir addımında dünyaya nümayiş etdirir. Məhz uğurlu, düşünülmüş və məqsədyönlü siyasətin qısa zamanda öz nəticəsini verəcəyinə əminlikdən irəli gəlirdi ki, ulu öndər Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan zaman Azərbaycanın bu çətinlikləri arxada qoyacağını, hər kəsin belə qüdrətli, güclü dövlətin vətəndaşı olması ilə fəxr edəcəyini bildirmişdi. Azərbaycan çox qısa zamanda Ümummilli Liderin qarşıya qoyduğu məqsədə yüksək səviyyədə nail olaraq dünyaya Günəş kimi doğdu”.

YAP Xətai rayon təşkilatının sədri ötən 31 ilin reallıqlarından biri kimi 2003-cü ildə ulu öndər Heydər Əliyevin xalqa müraciətində etimadın növbəti ünvanını göstərməsi oldu: ”Ümummilli Lider bildirdi ki, başa çatdıra bilmədiyi layihələri, işləri xalqın dəstəyi ilə cənab İlham Əliyev həyata keçirəcək. Dahi Lider Ona Özü qədər inandığını bildirdi. Həmin müraciətdə etimadın ünvanı kimi Yeni Azərbaycan Partiyası da göstərilmişdi. Bu gün böyük fəxr hissi ilə qeyd edirik ki, ulu öndər Heydər Əliyevin yaradıcısı olduğu, Prezident İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyası tarixi Zəfərimizin reallıqları fonunda yeni tərkibini formalaşdırmaqla, mühüm qərarlar qəbul etməklə gələcəyə doğru böyük inamla addımlayır. Dövlət başçısı, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev partiyanın ötən ilin martında tarixi Zəfərimizin yaratdığı yeni reallıqların fonunda keçirilən VII qurultayında bir daha bu əminliyi ifadə etdi ki, YAP bundan sonra da ölkədə gedən bütün proseslərin mərkəzində olacaq”.

Azərbaycanın 2003-cü ildən bugünədək keçdiyi inkişaf yoluna nəzər salan Vüqar Rəhimzadə bu uğurların zirvəsində dayanan tarixi Zəfərimizi keçilən yolun aydın mənzərəsi kimi təqdim edib: ”Azərbaycan Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə, dövlətimizin qətiyyəti, ordumuzun gücü, qüdrəti, xalqımızın birliyi, həmrəyliyi sayəsində 44 günlük İkinci Qarabağ müharibəsində Qələbə qazanıb dövlətimizin ərazi bütövlüyünü təmin etdi. Azərbaycanı qalib, ərazi bütövlüyünü təmin edən ölkə kimi görmək Ulu Öndərin ən böyük arzusu idi. Məhz buna görə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Qarabağın tacı Şuşanın işğaldan azad edilməsi müjdəsini xalqa çatdırarkən bildirmişdir: ”Mən bu gün ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!”.

YAP Xətai rayon təşkilatının sədri bu məqamı da xüsusi qeyd edib ki, İkinci Qarabağ müharibəsini Zəfərlə başa vuran Azərbaycanın qarşısında duran həlli vacib məsələlərdən olan Zəngəzur dəhlizinin reallaşması da Ulu Öndərin ən böyük istəklərindən biri idi. ”Ermənistan istəsə də, istəməsə də Zəngəzur dəhlizi açılacaq” söyləyərək bu istiqamətdə mühüm addımlar atan Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin bu istəyini də reallığa çevirir.

Vüqar Rəhimzadə belə bir ümumiləşdirmə aparıb ki, Azərbaycanın hər bir uğuru Heydər Əliyev siyasətinin təntənəsidir. Heydər Əliyev irsinin təbiliği məqsədilə yaradılan Heydər Əliyev Fondu da uğurlu layihələri ilə Azərbaycanın hərtərəfli inkişafına öz töhfələrini verir: ”Hazırkı dövr işğaldan azad edilmiş ərazilərimizdə həyatın bərpası dövrüdür. Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın işğaldan azad edilmiş ərazilərimizə səfərləri, burada aparılan bərpa-quruculuq işləri ilə yaxından tanış olmaları hər birimizdə sonsuz qürur hissi doğurur və Milli Prioritetlərin reallığa çevrilməsinə böyük əminlik yaradır. Artıq soydaşlarımızın Böyük Qayıdışı reallaşmaqdadır. Dövlət başçısı İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın avqustun 27-də Laçına qayıdışımızla bağlı paylaşımları özündə mühüm məqamları və çağırışları ehtiva edir. Heydər Əliyev yolunun uğurlarını yaşayan Azərbaycan bundan sonra da daha möhtəşəm hədəfləri reallığa çevirəcək, dünyanı heyrətləndirəcək, dünya azərbaycanlılarını qürurlandıracaq”.

## ““Media haqqında” qanun zaman keçdikcə kifayət qədər müsbət töhfələr verəcək”



Azərbaycan inkişaf etdikcə bütün sahələrdə olan müsbət məqamlardan danışmaq olar. Bu müsbət məqamlardan biri də Azərbaycanda mövcud olan ”Media haqqında” qanundur. Media cəmiyyətin güzgüsüdür. Biz necəyiksə, mediamız da elədir. Kütləvi informasiya vasitələrinin hər biri cəmiyyətdə baş verən hadisələri operativ şəkildə üzə çıxararaq göstərir və insanları məlumatlandırır. Hazırda medianın qarşısında duran əsas vəzifələrdən biri dövrün tələblərinə uyğun daha operativ, daha sürətli məlumatın alınıb ötürülməsidir. ”Media haqqında” qanunun bu məsələlərin həll olunması üçün çox böyük əhəmiyyət daşıdığını hesab edirəm”. Bunu Pravda.az-a açıqlamasında Milli Məclisin deputatı Vüqar İskəndərov deyib.

Deputat bildirib ki, son illər onlayn medianın inkişafını xüsusilə qeyd etmək lazımdır: ”Onlayn mediada şəffaflığın təmin olunması baxımında bir çox maraqlı məqamlar var. Onlardan biri dövlət orqanlarının, millət vəkillərinin, qeyri-hökumət təşkilatlarının, eləcə də rəsmi qurumların mətbuat katiblərinin məlumat və yazılarının operativ olaraq olduğu kimi ötürülməsi və çap olunmasıdır. Bundan əlavə, onlayn media subyektlərində məsul redaktorun, eləcə də yazı müəllifinin ad və soyadının qeyd olunması da bu sahədə şəffaflığın təmin olunmasına gətirib çıxarır. Media orqanlarından ”Media haqqında qanun”un tələblərindən irəli gələrək daha şəffaf fəaliyyət göstərmələri tələb olunur. Bunların hər biri müsbət məqamlardır. Əksəriyyət ilk məlumatları televiziyadan əvvəl onlayn mediadan almağa çalışırıq. Bu platformalar hər birimizin maarifləndirilməsində böyük rol oynayır. ”Media haqqında” qanunun zaman keçdikcə kifayət qədər müsbət töhfələr verəcəyini düşünürəm. Ümumiyyətlə, cəmiyyətimizin hərtərəfli inkişafında media və onunla bağlı qanun müsbət rol oynayacaq”.

***1970-ci illərdən başlayaraq təxminən 15 il ərzində bir çox inkişaf etmiş ölkələrdə işsizliyin müvəqqəti artması və sosial gərginliyin kəskinləşməsi ilə müşayiət olunan sənayenin yenidən qurulması prosesləri baş vermişdir. Bu baxımdan, bir çox ölkələr özünüməşğulluq formasında fərdi sahibkarlığın inkişafı istiqamətində addımlar atıb. Dövlət artan iqtisadi tənəzzül şəraitində müvəqqəti müavinətləri üçün əhəmiyyətli vəsait ayırmağa məcbur olmuşdur. Bu vəziyyətdən çıxmağın səmərəli vasitələrindən biri də işsizləri özünüməşğulluq və fərdi iş yerlərinin yaradılması yolu ilə iqtisadi fəaliyyətə cəlb etməklə onlara kömək etmək idi.***



# Özünüməşğulluq proqramından kimlər istifadə edə bilər?









ARAŞDIRMA

Bu tsiklik depressiyalar zamanı bir çox ölkələrdə işsizlərə öz fərdi müəssisələrini yaratmağa kömək etməyə yönəlmiş bir sıra sahibkarlıq təlimi proqramları həyata keçirilmişdir. Özünüməşğulluq termini istər evdə, istər mağazada, istərsə də başqa yerdə öz biznesinə sahib olmaq və yalnız özü üçün işləmək deməkdir. Belə bizneslərin bəzi nümunələri: şəxsi biznes və sosial xidmətlər, daşınmaz əmlak, pərakəndə satış, marketinq araşdırmaları, proqramlaşdırma, müstəqil konsaltinq, reklam və s. kimi misal gətirmək olar.

Bu fəaliyyət sahəsində maraqlı cəhət ondan ibarətdir ki, belə bir sahibkar dövlət və özəl təşkilatlara müəyyən məsələlər üzrə xidmət göstərə bilər. Özünüməşğulluğun başqa bir tərifi özünü təmin etmək, işəgötürənlə müstəqil işləmək və ya sərbəst peşə üzrə mütəxəssis kimi fəaliyyət göstərməkdir. Biznesin əldə edilməsinin effektivliyini və onun gələcək inkişaf perspektivlərini qiymətləndirmək üçün kifayət qədər mürəkkəb iş kompleksi həyata keçirmək lazımdır. Özünüməşğulluq yolu ilə getmək istəyən şəxs fəaliyyət istiqamətini seçməli, biznes plan hazırlamalı, onu peşəkar məsləhətçinin ekspertizasına təqdim etməli, sonra isə öz layihəsinə maliyyə və texniki dəstək üçün vəsait axtarmalıdır. Özünüməşğulluqda ən böyük çətinliklər başlanğıc dövrü, maliyyələşdirmə və hesabat, hüquqi və inzibati məsələlərdir. Mürəkkəb məsələlərin həlli üçün hər bir ölkədə özünüməşğulluğun dəstəklənməsi və inkişafı üçün ilk növbədə işsizlərə, əlillərə və öz səylərini biznes sahəsində tətbiq etmək imkanı axtaran gənclər ixtisaslaşdırılmış proqramlar yaradılır. ilk dəfə özünüməşğulluğun inkişafı və dəstəklənməsi üçün belə proqramlar 1970-1980-ci illərdə Avropada meydana çıxdıb. Proqramların strateji məqsədi işsizlərin özləri tərəfindən onlara texniki yardım göstərmək, kreditlər, qrantlar və müxtəlif imtiyazlar vermək, habelə sosial yardım və ya müavinətlərdən kapitallaşmaq imkanı yaratmaq olmuşdur. Bununla yanaşı, bir çox proqramlar başlanğıc dövründə praktiki təlimlər, məsləhətlər və müxtəlif növ biznes xidmətləri şəklində dəstək veriblər. Özünüməşğulluğun inkişafı proqramları ilk növbədə sosial müavinət alan işsizlərə yönəldilmişdir ki, onlar öz bizneslərini yaratmaq prosesində bütün praktiki təlim müddətində maddi dəstəyini itirməyəcəklərinə əmin ola bilsinlər.

**Dövlət Məşğulluq Agentliyinin mətbuat katibi Əsmər Nəcməddinqızı** SİA-ya açıqlamasında bildirir.



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən həyata keçirilən önəmli aktiv məşğulluq istiqamətlərindən biri özünüməşğulluq proqramıdır. Özünüməşğulluq-şəxsin müstəqil surətdə və yaxud dövlətin dəstəyi ilə özünü işlə təmin etməsidir.

Aztəminatlı ailələrin sosial rifahını yüksəltmək məqsədilə sosial siyasət sahəsində Özünüməşğulluq tədbirlərinə xüsusi yer ayrılır. Özünüməşğulluq proqramı çərçivəsində Dövlət Məşğulluq Agentliyi tərəfindən kiçik biznesə başlamaq istəyi, minimum potensialı, bacarıqları, təsəvvürü olan əmək qabiliyyətli, həmçinin məhdud əmək qabiliyyətli şəxslərin dövlətin dəstəyi ilə öz ailə təsərrüfatlarını, kiçik bizneslərini yaratmalarına dəstək göstərilir. Proqram çərçivəsində aztəminatlı ailələrə fərdi təsərrüfatlarının təməlini qoymaq və ya inkişaf etdirmək üçün dövlət vəsaiti hesabına birbaşa mal və materiallar formasında aktivlər verilir.

Özünüməşğulluq proqramına işsiz kimi qeydiyyata alınmış şəxslər, eyni zamanda, mülkiyyətində kənd təsərrüfatına yararlı pay torpağı olub, digər məşğulluğu olmayan, işaxtaran kimi qeydiyyata alınmış şəxslər müraciət edə bilər.

Özünüməşğulluq proqramı çərçivəsində vətəndaşlara kənd təsərrüfatı üzrə (iribuynuzlu, xırdabuynuzlu heyvandarlıq və arıçılıq) istehsal və xidmət istiqamətləri üzrə aktivlər təqdim edilir.

Proqram həmçinin alternativ sosial müdafiə tədbirləri ilə müqaisədə əhəmiyyətli üstünlükləri ilə fərqlənir. Belə ki, proqram eyni vaxta bir neçə makro məqsədlər istiqamətində paralel nəticələrin əldə edilməsinə imkan yaradır. Ümumilikdə isə özünüməşğulluq proqramının üstün tərəflərini aşağıdakı kimi qruplaşdırmaq olar:

- Ailə büdcəsinin dayanıqlı gəlir mənbələri hesabına formalaşması;
- Mikro və kiçik sahibkarlığın inkişafı;
- Yeni iş yerlərinin yaradılması və işsizlik səviyyəsinin azaldılması;
- İctimai vəsaitlərin (dövlət vəsaitləri) xərclənməsində səmərəliliyin artırılması;
- Yoxsulluq səviyyəsinin azaldılması;
- İqtisadiyyatda inkluzivliyin gücləndirilməsi.

Proqramın icrası zamanı üstün hüquqa malikdirlər:

Şəhid ailələrinin üzvləri;

Ünvanlı dövlət sosial yardımı alan şəxslər;

Əlilliyi olan şəxslər və sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqlar;

1 ildən artıq işsiz kimi qeydiyyatda olan şəxslər;

Pensiya yaşına 2 ildən az qalmış şəxslər;

Cəzaçəkmə müəssisəsindən azad edilmiş işsiz şəxslər.

Özünüməşğulluğun təşkili aşağıdakı mərhələləri əhatə edir:

Özünüməşğulluğun təşkili ilə bağlı məslələhətlərin və məlumatların verilməsi;

Əmək bazarının təhlili əsasında iqtisadiyyatın sahələri üzrə özünüməşğulluq istiqamətinin seçilməsinə və təşkilinə köməklik göstərilməsi;

Özünüməşğulluğun təşkili üçün biznesplanın hazırlanmasına köməklik göstərilməsi, o cümlədən təlimlərin keçirilməsi və onların nəticələrinin qiymətləndirilməsi;

Seçilmiş özünüməşğulluq istiqamətinin təşkili üçün işsiz şəxslərə natura şəklində material, avadanlıq və digər əmlakın (əmlak) 1 (bir) il müddətinə müqavilə əsasında verilməsi;

Özünüməşğulluğa cəlb olunmuş şəxsin fəaliyyətinin 1 (bir) il müddətində dövri monitorinqi.

Özünüməşğulluq proqramına cəlb edilən şəxslər aktivlərlə təmin edilməzdən əvvəl təlim kurslarına cəlb edilir. Proqram iştirakçılarına özünüməşğulluq istiqaməti üzrə nümunəvi biznes planın hazırlanması, özünüməşğulluq istiqaməti üzrə fəaliyyətin təşkilinə dair əsas biliklər, biznes fəaliyyətinin həyata keçirilməsi üçün hüquqi prosedurlar öyrədilir, motivasiya yönümlü təqdimatlar edilir, bazarlara çıxış imkanlarının artırılması və digər dövlət proqramlarından istifadə ilə bağlı perspektivlər izah olunur. Təlimlər bitdikdən sonra iştirakçıların özünüməşğulluq fəaliyyətinə başlamaq üçün hazırlığı qiymətləndirilir. Biznes planını uğurla müdafiə edən şəxslər əmlak formasında aktivlərlə təmin edilir.

Proqrama cəlb olunmuş şəxslərə aktivlər təqdim edildikdən sonra da onlara biznesin idarə edilməsi və inkişafı ilə bağlı müvafiq məsləhətlər verilir. Özünüməşğulluq fəaliyyətinin 1 il ərzində bu fəaliyyətin monitorinqi aparılır. Müqavilə müddətinin sonuna həmin şəxsin fəaliyyəti təqdim edilmiş biznes plana uyğun olduqda, verilmiş əmlak özünüməşğulluğa cəlb olunmuş şəxsin mülkiyyətinə verilir. Vətəndaşlar Proqrama cəlb edilmək üçün Dövlət Məşğulluq Agentliyinin Ərazi Məşğulluq filiallarına, DOST Mərkəzlərinə müraciət edə və ya www.e-sosial.az portalı vasitəsilə "Məşğulluq" altsistemi üzərindən qeydiyyatdan keçə bilərlər.

Qeyd edək ki, ötən il proqrama 16 232 şəxs cəlb edilib. Bu isə proqramın icrasına başlandığı 2017-ci il ilə müqayisədə 13,6 dəfə genişlənib.

Proqramın əhatə dairəsinin genişləndirilməsi və yeni özünüməşğulluq istiqamətlərinin yaradılması məqsədilə beynəlxalq və yerli qurumlarla əməkdaşlıqlar həyata keçirilir. Dünya Bankı ilə birgə "Azərbaycanda məşğulluğa dəstək" layihəsi həyata keçirilir. 22 min işsiz şəxsin cəlb ediləcəyi layihənin iştirakçıları üçün kiçik bizneslərini qurmaları üçün dəstək göstəriləcək. Dövlət Məşğulluq Agentliyi və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının birgə həyata keçirdiyi "Əhalinin sosial cəhətdən həssas qrupları üçün inklüziv və layiqli iş yerlərinin yaradılması" layihəsi də özünüməşğulluq proqramına dəstək məqsədilə həyata keçirilir. Proqram çərçivəsində digər istiqamətlər olaraq "Kəndlərdə sahibkarlığın və özünüməşğulluğun inkişafı" layihəsi, "Biznesini yarat marafonu", "Məktəbim" layihəsi, "Kəndlərdə heyvandarlıq sahəsində ailə biznesinin və özünüməşğulluğun inkişafı" layihəsi, "Dönər biznesi ilə məşğul olan qida obyektlərinin sağlamlaşdırılması" layihəsi, "Ağıllı kənd" layihəsi və s. icra olunur.

Digər məşğulluq xidmətlərində olduğu kimi, özünüməşğulluq proqramının icrasının da rəqəmsal platforması yaradılıb. Proqrama müraciət edənlərin elektron reyestri, qiymətləndirmə əsasında növbəlilik prinsipi tətbiq edilib. Həmçinin proqrama aid e-platforma yaradılaraq, aktiv alanların sənədləri və aktivlərin verilməsi prosesinə aid foto, video çəkilişlər ictimaiyyətə açıqlanır.

Özünəməşğulluq proqramına işsizlər və mülkiyyətində kənd təsərrüfatı təyinatlı yararlı pay torpağı olub, digər məşğulluğu olmayan işaxtaran şəxslər cəlb olunurlar. Bu sözləri S?A- ya açıqlamasında deputat Azər Badamov qeyd edib. Özünəməşğulluq prorpamının əhalinin aztəminatlı təbəqəsinin sosial müdafiəsinin gücləndirilməsi və işsizliyin aradan qaldırılmasında mühüm əhəmiyyətə malikdir. İşaxtaran işsiz şəxslərə dövət dəstək göstəir. Bu dəstək həmin şəxsləri kurslara cəlb etməklə maarifləndirməklə, biznes planlarınının hazırlanmasına kömək etməklə və aktivlərlə təmin etməklə həyata keçirilir. Beləliklə, nəticədə işsiz və dövlətin əlinə baxan şəxslər sahibkarlara çevrilir. Nəticədə, müstəqil öz büdcəsini formalaşdıra və hətta əlavə işyerlərini yarada bilir. Təcrübədə belə hallar çox olmuşdur. Məsələn, əvvəl işsiz və dövlətdən sosial yardım alan şəxs özünəməşğulluq proqramından yararlanaraq bir neçə ildən sonra biznesini genişləndirir və özü bir neçə nəfəri işlə təmin edir. Bu da yeni iş yerlərinin yaradılmasına töhfə deməkdir. Özünə məşğulluq proqramına qoşulmağına üstünlük verilən şəxslərin siyahısına nəzər yetirək. Bunlar ünvanlı dövlət sosial yardım alanlar, əlilliyi olan şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar, şəhid ailəsinin üzvləri, bir ildən artıq işsiz kimi qeydiyyatda olanlar, pensiya yaşına iki ildən az qalmış şəxslər, cəzaçəkmə yerlərindən azad edilmiş şəxslərdirlər. Bu kateqoriyadan olanlar demək olar ki, iş tapmaqda daha ümidsiz şəxslərdirlər. Onların başqa bir yerdə işaxtarmaq imkanları daha aşağıdır. Dövlət belə şəxsləri özünəməşğulluq proqramlarına cəlb etməklə onlara ailə biznesinin yaradılmasına və özlərini cəmiyyətin dəyərli bir üzvü olduqlarını hiss etmələrinə imkan verir.

Özünəməşğulluq proqramları ölkə iqtisadiyyatının güclənməsinə töhfə verir. Əgər dövlətin yardımında gözü olan bir ailənin büdcəsini özünün gəlirləri hesabına müstəqil formalaşdıra bilirsə, təbii ki, bunun çoxtərəfli əhəmiyyəti vardır. Özünəməşğulluq proqramlarına cəlb olunaraq düzgün qurulmuş ailə biznesini yaradan şəxslər mikro və kiçik sahibkarlıq subyektlərinə çevrilir. Təbii ki, sahibkarlıq subyektlərin çoxalması ölkə iqtisadiyyatının gücləndirilməsinə gətirib çıxarır. Məsələn, əvvəllər dövlətdən alacağı sosial yardımı gözləyən şəxsin özü dövlətin dəstəyi ilə sahibkara çevrilir və dövlət büdcəsinə vergi ödəməyə başlayır. Vergi ödəyicilərin sayının artması büdcəyə daxilolmaların artması deməkdir. Ona görə də özünəməşğulluq proqramının genişləndirilməsini vacib hesab edirəm.

Özünəməşğulluq proqramlarının genişlənməsinin məqsədlərindən biri də yeni iş yerlərinin yaradılması olduğundan, bu da ölkədə işsizliyin azalmasına müsbət təsir göstərir. Müqayisə üçün belə bir statistikaya diqqət yetirək. Ötən il 16232 şəxs özünüməşğulluq proqramına cəlb olunub ki, bu da proqramın icrasına başlanıldığı 2017-ci illə müqayisədə 13,8 dəfə çoxdur. Proqramın fəaliyyət sahələrinin sayı da artaraq 44-ə çatıb. Yəni hər il bu proqrama cəlb olunanların sayı və təqdim olunan fəaliyyət sahələrin çeşidliyi artır. Bu, o deməkdir ki, aztəminatlı ailələrin özünəməşğulluq proqramına cəlb olunaraq sahibkarlıq subyektinə çevrilmək imkanları genişlənmişdir. Təbii ki, aztəminatlı ailələrin həcminin azalması, bu həm də ölkədə yoxsulluğun azalması deməkdir. Hesab edirəm ki, ölkədə özünəməşğulluq proqaramları genişlənməlidir. Bu proqarma qoşulmaq üçün edilmiş müraciətlər sürətlə təmin olunmalı və dövlətdən alınan aktivlərdən səmərəli istifadə olunması üçün nəzarət mexanizmi gücləndirilməlidir. Özünə məğşulluq proqramı ölkədə işsizliyin və yoxsulluğun azalmasına və iqtisadiyyatın daha da dayanıqlı olmasına yol açır.

**İqtisadçı Eyyub Kərimli** isə ümumiyyətlə, dünyada qəbul olunan prinsiplərdən biri insanları özünüməşğulluqla təmin olunmasıdır ki, bu, həm insanların gəlirlərin və rifahın yaxşılaşdırılması, həm ev təsərrüfatların inkişaf etdirməsidir, həm də mikrobiznes sahəsinin rəqabətliliyin artırılmasına təsir göstərir. Özünüməşğulluq programların genişləndirilməsi sözsüz ki, inflyasiya təsirlərini azaltmağa yardımçı ola bilər. Bu cür proqramların əsas məqsədi qeyd etdiyim kimi ailələrin rifahının artırılması, dövlətdən asılılığının azaldılması, onları bilik və vərdişlərlə təmin edilməsi, həmçinin kiçik biznes vərdişləri ilə təmin olunması göstərilir. Gələcəkdə belə layihələrin genişləndirməsi üçün müəyyən tədbirlər görülür. Həm avadanlıqlarla təmin edir, həm də ailələrin uzun müddətli işlərin qurulması və yoxsulluq səviyyəsinin azaldılması üçün əhəmiyyətli program kimi vətəndaşlara xidmət göstərir.

**Havar Şəfiyeva**

# BİR MİLLƏT İKİ DÖVLƏTİN OXŞAR TALEYİ

## 30 AVQUST - Türk ulusunun zəfər dastanının yazıldığı gün



***30 avqust - Zəfər bayramı haqqında yazarkən, bir məqamı da qeyd etmək yerinə düşər. Bu da "bir millət iki dövlət" olan Azərbaycanla Türkiyənin varolma tarixlərindəki oxşarlıqla bağlıdır. Belə ki, hər iki dövlətin müstəqilliyi ağır və qanlı savaşlardan keçib.***

Dahi Mustafa Kamal Atatürk Qurtuluş Savaşına öndərlik etməklə Osmanlı İmperiyasının ərazilərinin xarici işğalçılar tərəfindən ələ keçirilməsinin qarşısını aldı və Türkiyə Cümhuriyyətinin əsasını qoydu. Ulu öndər Heydər Əliyev isə 1993-cü ildə ikinci dəfə hakimiyyətə gələndən sonra xarici və daxili düşmənlərin parçalanma planlarının mərkəzində dayanan Azərbaycanı yox olmaq təhlükəsindən xilas etdi. Müasir, qüdrətli və daim inkişaf edən dövlətin əsasını qoydu.Həmçinin, oxşar taleləri yaşayan, oxşar ağır sınaqlardan keçən Azərbaycanla Türkiyə tarix boyu ən çətin vaxtlarda bir-birinə arxa dayaq olublar. Çanaqqalada türklərin, türk dövlətçiliyinin ölüm-qalım savaşında qardaşlarına yardıma gedərək şəhid olan azərbaycanlıların, həmçinin, 1918-ci ildə Bakını erməni-bolşevik işğalından xilas edərkən şəhid olan türklərin məzarları deyilənləri təsdiqləməklə yanaşı, bu gün iki qardaş xalqı bir-birinə daha da sıx bağlayır.Türkiyə ilə Azərbaycan arasında əlaqələrdə atılan hər addım regional əməkdaşlığın inkişafına, təhlükəsizliyin güclənməsinə xidmət edir. Azərbaycan torpaqlarının işğaldan azad edilməsi iki dövlətin əlaqələrinin genişlənməsinə müsbət təsir göstərib. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın son bir ildə Azərbaycana ardıcıl olaraq səfərlər etməsi bunu təsdiqləyir.

### İki dövlət, bir millət- sarsılmaz, əbədi birliyin nümunəsi

Bu gün Türkiyə və Azərbaycan liderlərinin görüşləri iki dövlətin sarsılmaz birliyinin əyani təzahürüdür. Çünki Azərbaycan və Türkiyə münasibətləri maraqlara deyil, dəyərlərə əsaslanır. Və bu bütün dünya üçün bir nümunədir. Öz maraqları üçün min oyunlar oynayan, hər cür addımlara gedən, mənəviyyatsızlıqları sərhəd tanımayan xarici siyasi dairələr qarşısına Azərbaycan və Türkiyə Prezidentləri bu dəyərlərin gücü ilə çıxırlar. Onlara öz yerlərini göstərirlər. Bu iki liderin uca şəxsiyyətinə, mənliyinə, mənəviyyatına, dəyərlərə bağlılığına yaraşan da elə məhz budur! Prezident İlham Əliyev: "Bu gün Türkiyəyə qarşı çox böyük ədalətsizliklər, haqsızlıqlar edilir, həm bəzi ölkələr tərəfindən, həm də təəssüf ki, Türkiyənin içində də bəzi siyasi qüvvələr tərəfindən... Çünki siyasi mübarizə hər yerdə var. Bir də milli məsələ var. Milli məsələdə hər hansı bir siyasi mübarizə olmamalıdır. Biz təhdid qarşısında birləşməliyik. Bu gün Türkiyəyə də hər tərəfdən hücum edirlər. Ona tab gətirmək, onun qarşısında sipər kimi dayanmaq çox böyük cəsarət tələb edir. Böyük peşəkarlıq, bilik, iradə tələb edir. Mənim qardaşım, bax, belə insandır və mən onu yaxından tanıdığım üçün bunu tam səmimiyyətlə deyə bilərəm". Bəli, bu gün Azərbaycanla Türkiyə arasında uzun illərin sınağından çıxmış dostluq və qardaşlıq münasibətləri bir daha onu göstərir ki, iki ölkə arasındakı əlaqələr əbədidir və heç bir qüvvə Azərbaycan - Türkiyə dostluğunun, qardaşlığının qarşısını ala bilməz. İki qardaş ölkənin yaxından iştirakı ilə reallaşdırılan qlobal layihələr regionun mənzərəsini dəyişir. Cənubu Qafqazda sülh və təhlükəsizliyin təmin olunması, bu bölgənin yaxın gələcəkdə dünyanın inkişaf mərkəzlərindən birinə çevrilməsi üçün əsaslı zəmin formalaşdırır. Bu prosesə töhfə verən hər kəs bundan yalnız faydalanacaq. Çünki Azərbaycan və Türkiyə bu gün regionda yeni bir reallıq yaradır. Qarabağ savaşı Böyük Qələbəmizlə başa çatandan sonra Cənubi Qafqaz çox ciddi və mühüm bir başlanğıca qədəm qoyur. O başlanğıcın adı Sülhdür! Sabitlik və İnkişafdır!

### 30 avqust qələbəsi türk millətinin sarsılmazlığının və iradəsinin nümunəsidir

Türkiyə Cümhuriyyətinin dövlətçilik tarixində mühüm yerlərdən birini tutan 30 avqust-Zəfər bayramı gününü Azərbaycan da Zəfər bayramı kimi qeyd edir. Zəfər bayramına bu cür önəmin verilməsi isə heç də təsadüfi deyil. Çünki Türk xalqı və Türkiyə Silahlı Qüvvələri Mustafa Kamal Atatürkün öndərliyi ilə 1922-ci il avqustun 30-da tarixi zəfərini qazanıb. Bu böyük zəfər, 30 avqust qələbəsi türk millətinin sarsılmazlığının və iradəsinin nümunəsidir. Bütün bunların nəticəsində bugünkü Türkiyə dövləti meydana gəlib. Lakin bu qələbə heç də asanlıqla qazanılmayıb. Təkcə Türkiyənin deyil, eyni zamanda, türklüyün şərəf tarixi olan 30 avqusta aparan yolda saysız-hesabsız savaşlar baş verib, türk millətinin qeyrətli oğul və qızlarının qanları axıdılıb. Zəfər bayramı 1922-ci ilin 26 avqustunda başlayıb 30 avqustda Dumlupınarda Mustafa Kamal Atatürkün baş komandanlığı altında qələbəylə nəticələnən "Başkomutanlıq Meydan Müharibəsi"ni (Böyük Taarruz) yad etmək üçün qeyd olunan bayramdır. Zəfər bayramı ilk dəfə 30 avqust 1923-cü ildə Afyonqarahisar, Ankara və İzmirdə qeyd olunub. Rəsmi olaraq isə, Zəfər bayramı 1935-ci ilin may ayında elan edilib. Beləliklə, 30 avqust 1922-ci il tarixi Türk ulusunun imperialist güclərə qarşı qadınıyla, uşağıyla, ordusuyla verdiyi bir savaşın, Zəfər dastanının yazıldığı gündür. Türk ulusunun müstəqillik düşüncəsinin ölümsüz bir abidəsi olan bu zəfər Türk ordusunun yüksək qüdrət və qəhrəmanlığının bir nümunəsidir. Bu zəfər milli birlik və bərabərliyin nə qədər böyük güc olduğunu da bir daha təsdiqləyib. Həmin tarixi gün münasibətilə xalqa müraciət edən Mustafa Kamal Atatürkün "Böyük Türk milləti! Ordularımızın qabiliyyət və qüdrəti düşmənlərimizə dəhşət, dostlarımıza əmniyyət verəcək şəkildə özünü göstərdi. Böyük zəfər sənin əsərindir" sözləri isə, ümumilikdə Türkiyə üçün yaşam şüarına çevrilib. Və bu gün həmin şüara sadiq qalan türk milləti dahi Atatürkün yadigarı və onun qurduğu dövlətin bir nömrəli keşikçisi olan Türk ordusunun daha da güclənməsi üçün əlindən gələni edir. çünki güclü ordu, güclü Türkiyə deməkdir!!!Və buna görə də 30 Avqust - Zəfər bayramı Türkiyə kimi Azərbaycan üçün də müqəddəs gündür. Və bu gün Azərbaycan qardaş Türkiyənin uğurları ilə fəxr edir, onun hər bir uğurundan qürur hissi keçirir. ZƏFƏR bayramın mübarək, qardaş Türkiyə!

***RƏFİQƏ HÜSEYNOVA***

# "Nar" yay kampaniyasına möhtəşəm festivalla yekun vurdu

"Nar" yay kampaniyası çərçivəsində əyləncə dolu festival ilə yaya yekun vurub. İlkin olaraq, bölgələrdən başlayan yay festivalı Lənkəran, Sumqayıt, Quba və Mingəçevirdən sonra paytaxt Bakı ilə yekunlaşdı. Çox sayda iştirakçının əyləndiyi gecədə Samirə Əfəndi, Azad Şabanov, Hiss, Rauf, Cin və Dj Kənan çıxış ediblər. Paralel olaraq, sosial mediada da istifadəçilər festivalın rəsmi simaları seçilmiş influenserlərdən (İradə Qədirova, Samirə Əfəndi və Cəfər Nəcəfov) yenilikləri öyrənir və maraqlı müsabiqələrdə iştirak edərək "Nar"dan dəyərli hədiyyələr qazanırdılar.




"Nar" hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. "Nar" son 3 ildəMüştəriLoyallığıİndeksinəgörəölkədəlidermobiloperatordur. Mobil operator müştəri yönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# "KİV-in ictimai rəyə, cəmiyyətə təsir imkanları çox genişdir"

"Dövlətin milli təhlükəsizlik siyasətinin ən mühüm istiqamətlərindən biri məhz media ilə bağlıdır. Məlum olduğu kimi, KİV-in ictimai rəyə, cəmiyyətə təsir imkanları çox genişdir. Media həm də insanların məlumatlandırılması işində əsas vasitə sayılır. Bəzən müəyyən şəxslərin medianın bu imkanlarından sui-istifadə hallarına rast gəlirik". Bunu "Səs" qəzetinə açıqlamasında "Həftə İçi" qəzetinin baş redaktoru Sevinc Seyidova deyib.



Onun sözlərinə görə, dövlətin milli təhlükəsizliyini təhdid edən, hərbi sirr mahiyyəti daşıyan xəbərlərin mətbuatda tirajlanmasının yaratdığı təhdidlərin miqyası çox genişdir: "Həmin məlumatlardan dövlətimizin düşmənlərinin yararlanmasına şərait yaratmaqla yanaşı, cəmiyyətdə müəyyən məsələlərdə doğru olmayan təsəvvürlərin, rəyin formalaşmasına da yol açırıq. Bu baxımdan, KİV-də yayımlanan hər material, xəbər öncə ciddi şəkildə araşdırılmalıdır. Medianın xəbər siyasətinə məsul şəxslər bu cür neqativlərin aradan qaldırılmasına xüsusi diqqət göstərməlidirlər. Təbii ki, hüquq-mühafizə orqanları qanunvericilik çərçivəsində səlahiyyətlərinə uyğun davranaraq mediada milli təhlükəsizliyimizi təhdid edən məqamların qarşısının alınmasında önəmli rol oynayır. Lakin tək inzibati cəza metodları ilə sözügedən problemi tam olaraq aradan qaldırmaq mümkün deyil. Xüsusilə də, sosial şəbəkələrin hazırda medianın əsas xəbər qaynağı rolunu oynadığı bir dövrdə bu cür həssas məqamlara daha çox diqqət ayırmalıyıq. Mediada çalışan həmkarlarımızın dövlət sirri, milli təhlükəsizliyi təhdid edən məqamlarla bağlı daimi təlimlərə cəlb edilməsi, jurnalistlər üçün xüsusi xidmət orqanları tərəfindən seminarların təşkili də mümkündür".

***Gülyana***

# Zəngəzur dəhlizi açılmalıdır



***Zəngəzur dəhlizi regionda sülhün bərqərar olması, qorunması və davamlı olması üçün çox vacib məsələdir və bu, bir reallıqdır. Təsadüfi deyil ki, Zəngəzur dəhlizi gündəmdədir və bu reallığı Ermənistan tərəfi nə qədər tez başa düşsə, nə qədər tez qəbul etsə bir o qədər özləri üçün də yaxşı olar. Dəhlizin açılması məsələsi uzandıqca bölgədə sülhün bərqərar olmasının sual altında qaldığını politoloqların əksəriyyəti vaxtaşırı vurğulayırlar və şübhəsiz ki, dəhliz açılmadıqca münasibətlərin normallaşdırılması ləngiməkdə davam edir.***

Təbii ki, Zəngəzur dəhlizinin açılması təkcə Azərbaycan üçün vacib hesab olunmur. Doğrudur, sözügedən dəhlizin açılmasında Azərbaycan tərəfi çox maraqlı, eləcə də israrlıdır. Məsələ burasındadır ki, bu dəhlizin açılması Ermənistan üçün də əhəmiyyətlidir. Ələlxüsus münasibətlərin normallaşdırılması baxımından həmin dəhliz Ermənistan üçün çox böyük əhəmiyyət kəsb edir. Çünki dəhliz açılmadıqca hansısa münasibətdən söhbət belə gedə bilməz. Təəssüf ki, bu reallığı Ermənistan tərəfi anlamaqda, mövcud imkanları dəyərləndirməkdə çətinlik çəkir. Əks halda ermənilər hələ də bu məsələni uzatmağa, ləngitməyə can atmazdılar.










Ölkə rəhbəri, cənab Prezident İlham Əliyev də vurğulayıb ki, əgər bizə bu əlaqə yolu təqdim edilməyəcəksə, sülh haqqında danışmaq çətin olacaq və Azərbaycanın Ermənistanla birgə yaşayış və normal qonşuluq münasibətlərinin qurulmasına yönəlmiş bütün səylər uğursuz olacaq. Əslində bu, Ermənistan tərəfinə ölkə rəhbərimizin mesajlarından, ən vacib mesajlarından biridir. Yetər ki, Ermənistan tərəfi bu mesajdan öz nəticəsini çıxarsın. Ermənistanın əfsus ki, bundan nəticə çıxarmadığı, yaxud nəticə çıxarmaq istəmədiyi görünür. Görünən odur ki, yenə də Ermənistan tərəfi məsələyə müxtəlif don geyindirmək üçün əlindən gələni edir. Gah olmayan və dırnaqarası "status" məsələsi ortaya atılır, gah da qondarma "hərbi əsir" söz-söhbəti gündəmə daşınır və burada məqsəd də məsələni uzatmaqdır. Əgər barəsində qeyd etdiyimiz dəhlizin açılmasının önəmini, əhəmiyyətini ermənilər anlasaydılar çoxdan qol qoyardılar və görünür hələ də anlamırlar.

Bir çox hallarda ermənilərin hələ bəzi məsələləri dərk etmədiyinin şahidi oluruq. Məsələn, bəzi erməni poitoloqları Azərbaycanın sülh danışıqlarından geri çəkilə bilməyəcəyini söyləyirlər. Azərbaycanla müharibədən, ələlxüsus 44 günlük döyüş zamanı Azərbaycan Ordusundan sarsıdıcı zərbələr alanları və bunu unutmayanları başa düşmək də çətin deyil, çünki onların canlarına elə qorxu düşüb ki, əsrlər boyu bunu yaddan çıxarmazlar və bu qorxunun fonunda ölkəmizin sülh danışıqlarından geri çəkilməyəcəyi fikirləri onlar üçün bir növ təskinlikdir. Amma "Qisas" əməliyyatı ilə ermənilərə başa salındı ki, heç də əminliklə oturub gözləyə, ağıllarına gələ edə bilməyəcəklər və tələblərə cavab verilməlidir. Bu tələblərdən biri də əlbəttə ki, Zəngəzur dəhlizinin açılıb istifadəyə verilməsidir.

Çox güman ki, ermənilər Qərbin də, Rusiyanın da Cənubi Qafqaza marağı olduğu üçün Azərbaycan tərəfinin onlarla hesablaşmalı olacağını düşünürdülər, amma gördülər, ələlxüsus "Qisas" əməliyyatından sonra anladılar ki, yanılırlar. Əmin oldular ki, kimlərə isə görə Azərbaycan öz mövqeyindən dönən deyil. Azərbaycanın öz haqq işində israrlı olduğuna bir daha əmin oldular. Həm də Azərbaycanın kimlərinsə marağına görə sülh barədə düşünmədiyinin, bölgədə sülhün möhkəmlənməsini və davamlı olmasını istədiyinin şahidi oldular. Bunun hətta bütün dünya şahidi oldu və şəksiz-şübhəsiz olaraq buna inandı. Göründü ki, Azərbaycan sülhsevər ölkədir və müharibədə qazandığı qələbəsinə rağmən sülh təklifi də irəli sürür və sülhə nail olmağa çalışır.

Ermənistan tərəfi, daha dəqiq desək, erməni baş nazir Zəngəzur dəhlizinin onlar üçün "qırmızı xətt" olduğunu bəzən söyləyir. Halbuki, həmin dəhliz qırmızı deyil, yaşıl xətt, yəni sülh, əmin-amanlıq yoludur. Bunu ermənilərin hələ də anlamaması təəccüb doğurur. Nikol nədənsə Zəngəzur dəhlizi deyəndə daş atıb baş tutur, amma Laçın dəhlisi ifadəsini dilə gətirməkdə, bu ifadəni işlətməkdə tərəddüd etmir, halbuki Laçın dəhlizi dediyinə alternativ yol istifadəyə verilməklə onun dediklərinin boş sözdən başqa bir şey olmadığı bu dəfə də öz təsdiqini tapır. Zənnimizcə, erməni xalqı öz hakimiyyətlərindən kifayət qədər yalan ifadələr, vədlər eşidiblər və bundan sonra inanmaları bir tərəfə, bu yalanlara qulaq assalar belə axmaq adlandırıla bilərlər.

Artıq ermənilər, bütövlükdə erməni xalqı, Ermənistan vətəndaşları dərk etməlidirlər ki, öz hakimiyyətləri tərəfindən, hansısa qüvvələr tərəfindən aldadılıblar, yenə də aldadılırlar və hansısa bəd niyyətin qurbanına cevrilməkdə davam edirlər. Bu gün Ermənistanın Zəngəzur dəhlizinin açılmasını yubatması, ləngitməsi erməni xalqına deyil, kimlərə isə sərf edə biləcək məsələdir. Kimlərsə, hansısa qüvvələrsə bu narazılıqdan, bu xaosdan öz mənafeyi naminə istifadə etmək niyyətindədir. Bu niyyətin reallaşması üçün isə erməni xalqı istifadə edilir və nəticə eyni ilə 44 günlük müharibənin onlara verdiyi acılar misalında məhz erməni xalqı üçün acınacaqlı olur. Dəhlizin açılışını uzatmaq istəyənlər anlamalıdırlar ki, qondarma da olsa bəhanə olaraq Qarabağa status tələb edənlər Zəngəzurun statusu tələbi ilə qarşılaşa bilərlər. Bir sözlə, bu status sözü belə ermənilərə baha başa gələ bilər və tarix boyu bunu unutmazlar.

Maraqlı bir məqam diqqəti çəlb etməyə bilməz. Belə ki, Nikol Paşinyan hərdən parlamentdə belə geriyə yollarının olmadığını söyləyir və bunun bir qorxunun təzahürü olduğu heç də sirr deyil. Qorxu da ondan ibarətdir ki, ermənilər geriyə yolun onları məhvə sürüklədiyini yaxşı bilirlər və Paşinyan özü də bunun fərqindədir. Elə isə, niyə bu ölkənin başbilənləri, ələlxüsus xalqını belində çanta küçələrdə vədlərlə doyduran, eləcə də aldadan manipulyator etiraf etmir. Niyə etiraf etmir ki, Zəngəzur dəhlizinin açılmasına nəinki mane olan, onu yubatmağa çalışanların aqibəti yaxşı ola bilməz. Nə səbəbə o vəziyyətlərinin yaxşı olmadığını, Zəngəzur dəhlizinin açılmasına ən azından mane olmamaqdan başqa çarələrinin olmadığını etiraf etmir? Ola bilsin dolayı şəkildə etiraf edir, amma bütün dünya bu etirafı səbirsizliklə gözləyir və bu ölkə hakimiyyətinin Ermənistanı uçuruma sürüklədiyi təkzib edilə bilməz, hansı ki, hadisələr bunu təsdiq edir. Belə çıxır ki, bu ölkə hakimiyyəti dolaşıq vəziyyətdədir.

Sözsüz ki, Zəngəzur dəhlizinin açılmasına qarşı çıxacağı təqdirdə Ermənistan tərəfinin hansı vəziyyətlə qarşılaşacağının ermənilər özləri də fərqindədirlər. Ermənistan hakimiyyəti özü belə onun fərqindədir ki, Azərbaycan adekvat addımlar atar. Əgər Zəngəzur dəhlizinin açılması ilə bağlı problem, yaxud yubanma ortaya çıxarsa ermənilər də Laçın dəhlizi ilə bağlı problemlə qarşılaşa bilərlər və bu onlar üçün daha dəhşətli olar. Bir sözlə, ermənilər, Ermənistan tərəfi də Zəngəzur dəhlizinin istifadəyə veriləcəyini gözəl başa düşür. Başa düşür ki, başqa çıxış yolu yoxdur. Yəni, anlaşılan odur ki, Zəngəzur dəhlizi açılmalıdır, başqa yol yoxdur.

***İnam Hacıyev***

# Moskva etibarsız Paşinyan rejimindən maksimal məsafə saxlamağa çalışır

## Rusiyanın siyasi texnoloqları Aİ ilə Kremlin fərqini şərh etdilər



İkinci Qarabağ müharibəsi 10 noyabr 2020-ci ildə imzalanmış Üçtərəfli Bəyanatın qüvvəyə minməsi ilə başa çatdı. Həmin gün Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan Rusiya Federasiyasının başçısı Vladimir Putinin vasitəçiliyi ilə müvafiq sənədi imzaladılar. Bu isə de-fakto Ermənistanın kapitulyasiyası kimi hesab olunur. Lakin Bəyanatın imzalanmasının üzərindən iki ilə yaxın vaxt keçməsinə baxmayaraq, Ermənistan Azərbaycanla imzaladığı sənəddəki bəndlərin, müddəaların həyata keçirilməsi prosesini müxtəlif bəhanələrlə gecikdirməyə çalışır.

### Aleksandr Şatilov: "Moskva üçün əhəmiyyətli olan budur ki, hətta müəyyən güzəştlər hesabına Türkiyə ilə Azərbaycanın neytrallığını təmin etsin"

Mövzu ilə bağlı Rusiya Federasiyası hökuməti yanında fəaliyyət göstərən Maliyyə universitetinin sosiologiya və politologiya fakültəsinin dekanı, politoloq Aleksandr Şatilov caliber informasiya mərkəzinə şərhini verib. Və ekspert ilk olaraq Rusiya rəhbərliyinin Azərbaycanın Laçın şəhərinə daxil olmasına kifayət qədər sakit reaksiya sərgiləməsi faktına diqqət çəkib, bunun Moskva ilə İrəvan arasında olan münasibətlərin kifayət qədər soyuqluğunun nəticəsi olduğunu hesab edib.

### "Moskva uzun illər göstərdiyi hərbi-siyasi dəstəyinə cavab olaraq "xainlikdə" ittiham olunur"

Bundan əlavə, Şatilova görə, Ermənistandakı qərbyönümlü güclər Rusiyanı guya Qarabağın verilməsində əsas günahkar kimi təqdim edirlər və bu baxımdan, Rusiya Federasiyası etibarsız Paşinyan rejimindən, bütövlükdə isə erməni trekindən maksimal dərəcədə məsafə saxlamağa çalışır. SİTAT: "Birincisi, hazırkı məqamda Moskva üçün Ukrayna istiqaməti əhəmiyyət kəsb edir, İrəvan isə burada hansısa vasitə ilə ya kömək etmək istəmir, ya da bunu edə bilmir.

İkincisi, erməni elitasının ABŞ və Aİ ilə



fəal kontaktları Rusiya maraqlarına zərər vurur və görünür, bununla Kremli qəzəbləndiriblər, hansı ki, Moskva uzun illər göstərdiyi hərbi-siyasi dəstəyinə cavab olaraq "xainlikdə" ittiham olunur.

Üçüncüsü, Rusiya Federasiyası ilə Qərbin Ukrayna uğrunda gərgin döyüş apardığı bir şəraitdə Moskva üçün əhəmiyyətli olan budur ki, hətta müəyyən güzəştlər hesabına Türkiyə ilə Azərbaycanın neytrallığını təmin etsin. Beləliklə, bütün bunlardan nəticə hasil edərək hazırkı məqamda Rusiya ilə Ermənistanın dərinləşən böhran vəziyyətində olduğu qənaətinə gəlmək mümkündür".

Avropa Şurasının rəhbəri Şarl Mişelin vasitəçiliyi ilə Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistanın baş naziri Nikol Paşinyanla keçirəcəyi Brüssel görüşünə gəldikdə isə, istər-istəməz belə bir sual yaranır: Brüssel Moskvanı bu mövzudan çıxdaş etməyə cəhd göstərirmi?

### Stanislav Mitraxoviç: "Bu, o demək deyil ki, Aİ bu məsələdə RF-nın yerini tuta bilər"



Bu suala cavabı isə Rusiya Federasiyası yanında fəaliyyət göstərən Maliyyə universitetinin elmi əməkdaşı, Milli energetika təhlükəsizliyi fondunun eksperti Stanislav Mitraxoviç verib. O, Aİ-nin vasitəçilik səylərinə aşkar skeptik münasibət bəsləyərək deyib ki, hazırda Moskvanın Ukraynada apardığı hərbi əməliyyatları baxımından onun digər istiqamətlərdə diplomatik, hərbi və iqtisadi fəaliyyətinə gücü yetmir. SİTAT: "Hətta bütün bunlarla məşğul olmaq üçün bürokratik aparat belə çatmır. Ona görə də, Ermənistan-Azərbaycan münasibətlərinin tənzimlənməsi prosesindəki vasitəçilik məsələsi qaçılmaz şəkildə gücdən düşür. Aİ daxil olmaqla digər oyunçular isə situasiyadan yararlanmağa cəhd edirlər. Lakin bu, o demək deyil ki, Aİ bu məsələdə RF-nın yerini tuta bilər. Aİ-nin beynəlxalq münaqişələri uğurla həll etməsi nümunələri hələ ki, olmayıb, etmək istədikləri isə nəticəsiz qalıb".

### "Bu tendensiya ona tərəf gedib ki, Rusiya hazırda zəifləyib"

Ekspertə görə, Aİ Balkanlardakı həlledici məqamları NATO-nun dəstəyi ilə həll edib: "İndi Rusiyanın güc yolu ilə saxlanılması məsələləri də NATO vasitəsi ilə həyata keçirilir. Başqa sözlərlə desək, Aİ-nin özünün nəyi isə həll etməsi nümunəsi yoxdur. Misal üçün, Serbiyada və Kosovada KFOR gücləri fəaliyyət göstərirlər və bu da göründüyü kimi, Aİ deyil, ayrıca strukturdur ki, daha çox NATO-ya yaxındır. Yəni mən Aİ-nin sükanı istədiyi tərəfə istiqamətləndirməsi effektini görmürəm".

"Həmçinin, düşünmürəm ki, Bakı və İrəvan hansısa sənədin imzalanması astanasında dayanıblar. Hər kəsi qane edəcək razılaşma hələ ki, görünmür. Və bu tendensiya ona tərəf gedib ki, Rusiya hazırda zəifləyib, ona görə də tərəflər başqa oyunçular axtarışına çıxıblar. Aİ isə bu arada Rusiyanı maksimal şəkildə əvəzləməyə çalışır", deyə Mitraxoviç sonda bildirib.

*Rövşən RƏSULOV*

# Dağıdıcı müxalifətlər mütləq öz cəzalarını almalıdırlar"

***"Dağıdıcı müxalifət uzun illərdir ki, eyni formada fəaliyyət göstərir və yenə də həmin fəaliyyəti davam etdirirlər. Ötən dövr göstərdi ki, bunların ictimaiyyət arasında heç bir dayaqları yoxdur. Yəni cəmiyyət arasında hər hansı bir formada etimad qazana bilmirlər". Bunu Azadlıq Hərəkatçılar Birliyinin sədri Təhmasib Novruzov "Səs" qəzetinə açıqlamasında bildirib.***

Onun sözlərinə görə, hazırkı mərhələdə dağıdıcı müxalifət bütün gücünü verib sosial şəbəkələrdə yaramaz və əsassız fikirlər yaymağa. Sosial şəbəkələr üzərində tənzimləyici mexanizmlər olmadığına görə, onlar bu boşluğu fürsət bilərək hay-küy yaratmağa çalışırlar. Amma bu da keçici bir məsələdir. Çünki zaman-zaman onlar özlərini xalqa sırımaq üçün hər cür metoddan istifadə ediblər. Eyni mənasız və əhəmiyyətsiz metodu davam etdirirlər. Demək olar ki, sözügedən qüvvələr bu günə qədər bütün texnologiyalardan istifadə etməyə çalışıblar və istifadə etdikləri texnologiyaların heç biri onlara uğur qazandırmayıb. Əminəm ki, onların sosial şəbəkələr üzərindən yaratmağa çalışdıqları hay-küy keçib gedəcək. Çünki onların xalq tərəfindən heç bir dəstəyi yoxdur. Belə olan halda da müxalifətin nə isə bir uğur qazanması mümkün deyil".

T.Novruzov onu da bildirdi ki, müxalifət liderləri öz ağılları ilə hərəkət etmirlər, yəni bunlara xaricdən necə komanda verilirsə, o cür də hərəkət edirlər: "Söz yox ki, onların milli və dövlətçilik maraqlarına zərbə vurmağa cəhd etmələrinin arxasında Azərbaycan dövlətinin inkişafını istəməyən bəzi xarici qüvvələrin dayanmasıdır. Çünki həmin xarici qüvvələrin istəkləri ölkəmizin əldə etdiyi uğurlara kölgə salmaqdan ibarətdir. Ancaq qətiyyətlə deyə bilərəm ki, nə xarici, nə də ki, daxili qüvvələrin nə etməsindən və nə deməsindən asılı olmayaraq onların heç vaxt Azərbaycanla bağlı xoşagəlməz planları baş tutmayacaq. Yaxşı olardı ki, onlar bu cür yersiz hərəkətlərindən əl çəksinlər. Ümumiyyətlə isə, təxribatlara meyilli olan dağıdıcı müxalifələr mütləq öz cəzalarını almalıdırlar".

*Gülyana*

# Saxla, arvadın qaldı



Mətanət MƏMMƏDOVA

***Bu günlərdə sosial şəbəkələrdə yayılan bir video yenə də erməni xislətini açan əsas vasitə olduğu üçün buna münasibət bildirməmək ən azından qəbahət olardı. Köçünü, şələ-şüləsini yığıb-yığışdırıb torpağımızı tərk edən ermənininin maşını sürüb rədd olarkən arvadını orada qoyub getməsi, arvadının da maşının ardınca qaçaraq hay-həşir salıb onu dayandırmaq istəməsi görüntüləri həqiqətən adamda ikrah hissi yaradır. Gör kimlərlə qonşuyuq, İlahi.***

İlahi-pərvərdigar adam da arvadını yadından çıxara bilər? Sən başqasının torpağına soxul, orada yaşa, həmin torpaqda əldə etdiklərini yığ maşına, özün də ya sür, ya da sürücünün yanında otur, get, arvadın yadından çıxıb qalsın orada. Gülməlidir, bir, ikrah hissi doğurur, iki, erməni sədaqətsizliyinə bir daha əminlik verir, üç, namusun onlar üçün dəyərli olmadığını təsdiq edir, dörd, fikir-zikirlərinin oğurluqla topladıqları mal-mülk olduğunu göstərir, bu da beş...

Hələ dünya yaranandan bəlkə də belə gülməli hadisə yaşanmamışdı, desəm, səhv etmiş olaram. Çünki 2020-ci ilin 44 günlük Vətən müharibəsində də buna bənzər bir hadisə ilə qarşılaşmışdıq. Kəlbəcəri tərk edən erməni əsgəri evdəki unitazı da söküb özü ilə aparırdı. Bu həmin erməni idi ki, Cəbrayılda, Füzulidə, Xocavənddə, Ağdərədə tankı qoyub qaçmışdı. Maraqlıdır, deyilmi? Yəqin yadınızdadır, erməni əsgərinin unitazı qucaqlayıb maşına doğru getməsi. Deməli, bunlar dara düşəndə özləri üçün ən vacib olanları götürürlər. Tankı neyləyir ki, erməni əsgəri unitaz olan yerdə. Azərbaycanlıların sitəmindən sonra ona məgər tank lazım olacaqdı. Lazım olacaq unitaz idi, onu da qucaqlayıb maşına qoyub apardı.

İndi də arvad... Ermənini çox yəqin ki, maşında daşıdıqları arvaddan daha önəmli əşyalar imiş. Yoxsa erməni ölmüşdü ki, lazımlını qoyub lazımsızı apara. Axı onların tarixən bu xislətə malik olduqlarını görmüşük. Meymun kimi ortalıqda oynadılıb havadarlarının əsaslı köməyi ilə torpaqlarımızı işğal edəndən sonra yurd yerlərimizdən daşıdıqları haqqında hər kəs məlumatlıdır. Onlar qarabağlıların dişləri-dırnaqları ilə tikdikləri evlərin dam örtüyünü, qapı-pəncərəsini oğurlayıb satanlar deyilmi? Allahı tanımadan məscidlərimizin qapı-pəncərəsini çıxarıb satanlar deyilmi? Kəlbəcərin qızıl yataqlarını söküb talayan, dünya bazarına çıxaranlar deyilmi? Çinar meşələrini talayıb satıb-sovanlar deyilmi? Onlarla belə misallar gətirmək olar.

Onlar nəyi daşımağı, nəyin pula gedəcəyini çox yaxşı bilirlər. Bu səbəbdən də arvad yaddan çıxıb qalanda nə olacaqdı. Əsas maşına yığdıqları mənzilbaşına çatsın.

Görəsən qonşuluğumuzda yaşayan erməni zaman-zaman xalqımıza aid musiqi əsərlərini, çalğı alətlərini, rəqsləri oğurlayıb öz adına çıxanda, mətbəximizdən yemək növlərini oğurlayıb dünyaya özününkü kimi təqdim edəndə, xalçalarımızı oğurlayıb naxışlarımızı mənimsəyəndə, bunu Qarabağ torpaqlarının onların olduğunu təsdiqləmək üçün əldə fakt kimi saxlayanda nə yaxşı bizdən bir az da qeyrət, namus öyrənib arvadlarını özləri ilə aparmağın vacib olduğunu dərk etməyiblər?

Torpaqlarımızı işğal edib burada düz 30 il yaşamaqla deyil ki. Namusu, qeyrəti, var olanına sahib çıxmağı o torpaqlar özününkülərə pay verir. Deməli, 30 il sonra arvadı qoyub bu torpaqlarda gedirsinizsə, onu bir daha sübut edirdiniz ki, bu torpaqlar əslа sizin olmayıb. Yoxsa ən azından 30 ildə bir azca namus, qeyrət də qoparmış olardınız o torpaqlardan.

Saxla, maşını, erməni, saxla, arvadını da apar. Aparmırsan da, heç aparma. Sizlərdən fərqli olaraq bizlər başqalarının da arvadının, qızının, uşağının namusunun qeydinə qala bilirik...

# Erməni generalının həbsi: Paşinyan günah keçisi axtarışında?

***Məlum olduğu kimi, "Qarabağdakı separatçı qüvvələrin rəhbərinin "baş müşaviri", keçmiş "müdafiə naziri" Mikayel Arzumanyanı Şuşaya görə həbs ediblər. Erməni mediasının məlumatına görə, Ermənistan İstintaq Komitəsi Arzumanyanı hərbi xidmətdə yol verdiyi səhlənkarlığına görə saxlayıb. Komitənin açıqlamasında qeyd olunub ki, Arzumanyan hərbi vəziyyət dövründə Şuşa şəhərinin və ətraf rayonların "müdafiəsinin" təşkili zamanı öz xidməti "vəzifəsinə" səhlənkar yanaşıb və "vəzifələrini" lazımınca yerinə yetirməyib.***

*Revanşistləri tam şəkildə neytrallaşdırmaqdan ötrü o, bu addıma getməli oldu*



Lakin bu arada belə bir sual yaranır: Şuşa iki ildir düşmən tapdağından azad olunubsa, bəs Arzumanyan hansı səbəblərə görə məhz indi niyə həbs edilib? Yaxud, o niyə daha əvvəl həbs olunmayıb? Əslində, məsələ bəsitdir. Son vaxtlar Ermənistanda yenidən müxalifət-iqtidar savaşı artmağa başlayır və o da sirr deyil ki, erməni revanşistləri Nikol Paşinyan hakimiyyətini məhz Qarabağ müharibəsindəki məğlubiyyətinə, habelə 10 noyabr 2020-ci ildə imzaladığı kapitulyasiya sənədinə imza atmasına görə ittiham edir.









O da sirr deyil ki, Nikol Paşinyan müharibədəki məğlubiyyətin səbəblərini məhz əvvəlki iqtidarların üzərinə yıxır. Daha dəqiq desək, sarsıdıcı məğlubiyyət Robert Koçaryan və Serj Sarqsyan hakimiyyətlərinin iqtidarı əllərində saxladıqları vaxtlarda ordu quruculuğunu boş buraxmaları, ölkə iqtisadiyyatını tənəzzülə uğratmaları, silahlanma prosesində köhnə və yararsız sursatlar, hərbi texnikalar əldə etmələri, orduda baş alıb-getmiş korrupsiya və cinayət halları və s. bu kimi faktorlarla əlaqələndirilir. Belə olan vəziyyətdə həmin ittihamları qəbul etməyən revanşist müxalifət liderləri əksinə - Paşinyanın bütün bunları bildiyi halda nəyə görə müharibəyə qatıldığını, Azərbaycanı müharibəyə təhrik etdiyini soruşurlar...

### Ermənistanın İstintaq Komitəsi Şuşa məğlubiyyətinin detallarını tam şəkildə açıqlayıb

Söz yox ki, günahkarlar adətən, yəni bir çox hallarda öz günahlarını üzərlərinə götürməkdən yan keçməyə, onu başqalarının üzərinə yıxmağa cəhd edirlər. Bu baxımdan, hazırda Ermənistanda da vəziyyət demək olar ki, eyni məsələni xatırladır. Qarşılıqlı ittihamlar isə onsuz da ağır vəziyyətdə olan ölkəni daha ağır situasiyalara doğru sürükləyir.

Amma erməni generalı Mikayel Arzumanyanı Şuşaya görə həbs olunmasında əsas məqam olaraq məhz Paşinyanın sifarişinin olduğunu da aşkar etmək çətinlik yaratmır. Çünki erməni baş naziri günah keçisi axtarmazsa, onun özü çıxılmaz vəziyyətə düşə bilər. Ona görə də revanşistləri tam şəkildə neytrallaşdırmaqdan ötrü o bu addıma getməli oldu.

Digər tərəfdən, diqqət çəkən nüanslardan biri də Ermənistan İstintaq Komitəsinin həbslə bağlı yaydığı mətndə Şuşanın "müdafiəsinin" necə yararsız təşkil olunduğunun detallarına qədər açıqlanması, həmçinin ictimai rəyə çatdırılmasıdır. Halbuki, hərbi sirlər, əsasən, uzun müddət sonra və lazım olanda arxivlərdən çıxarılır, açıqlanır və s. Misal üçün, İkinci Dünya müharibəsində cərəyan edən bir sıra hadisələr mövcuddur ki, indinin özündə belə sirr olaraq saxlanılır və müxtəlif sənədlər arxivlərdə xüsusi şəkildə qorunur.

**Günahkar keçi Qarabağdakı separatçı qüvvələrin rəhbərinin "baş müşaviri", keçmiş "müdafiə naziri" Mikayel Arzumanyandır!**

Azərbaycan Ordusunun Şuşanı azad etməsi, yəni erməni işğalçılarının Şuşadan qaçmaları faktının da bir sıra detalları erməni arxivlərində saxlanılır. Ancaq Paşinyan son zamanlarda nə qədər dalana diréndiyinin fərqinə vardıqdan sonra məcburi şəkildə arxivləşdirilmiş sənədləri açığa gətirməklə necə deyərlər, çulunu sudan çıxarmağa nail olmağı düşündü. Nəticədə isə günahkar keçi tapıldı və o, yuxarıda da qeyd edildiyi kimi, Qarabağdakı separatçı qüvvələrin rəhbərinin "baş müşaviri", keçmiş "müdafiə naziri" Mikayel Arzumanyandır!

Beləliklə, sözügedən mətndə hansı silahlı qrupların Şuşada və ətrafda necə yerləşdiyi və döyüşlərə necə cəlb olunduğu, o cümlədən döyüşçülərin sayına qədər yayınlanıb. Yəni Nikol Paşinyan Mikayel Arzumanyanın həbsi və Şuşanın hansı şəraitdə işğaldan azad olunmasıyla bağlı detallı məlumat yayınlamağı əmr etməklə məğlubiyyətə görə məsuliyyəti Qarabağ separatçılarının və onların yaritmaz "müdafiə nazirinin" boynuna yükləyir. Hətta buna qədər də baş verən həbslərin hər biri bilavasitə, yaxud dolayısı ilə məhz 44 günlük Qarabağ müharibəsinə bağlanır. Bu kimi hadisələr isə qarşıdakı zamanlarda da davam edə bilər. Paşinyan Qarabağ klanının yenidən baş qaldırmaması, revanşist müxalifətçilik konsepsiyasının birdəfəlik aradan qaldırılması istiqamətində yeni həbslərə də əmrlər verəcək.

**Rövşən RƏSULOV**

ANALİTİK

---



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

## Mixail Raisanın yanında özünü çox diskomfort hiss edəcək

***Camaatımızda belə bir deyim var və yəqin ki, çoxumuz bu deyimi bilir, hətta işlədib də... Deyir, ölənin dalınca danışmazlar. Amma el-obamızda digər bir deyim də var - filankəs öləndən sonra özünə ya rəhmət, ya da lənət qazandı. Və əgər söhbət hər hansı bir tanınmış şəxsdən gedirsə, onda onun arxasınca danışmaq istəməsən belə, bir-iki cümləlik münasibət bildirəcəksən. Necə deyərlər, adətdəndir.***

Yanılmadınız, söhbət Mişadan gedir, Mixail Qorbaçovdan, daha dəqiq desək, onun bu dünyanı tərk edərək o biri dünyaya yola düşməsindən və elədiklərinə görə sayı-hesabı bilinməyən haqq-hesabları qarşısında dayanmasından. Bir vaxtlar SSRİ kimi nəhəng və hegemon dövləti Qərbin əli ilə dağıdan, məhv edən, hətta buna görə haqq etmədiyi Nobel sülh mükafatını alan Qorbi ləqəbli Qorbaçov artıq bu həyatda yoxdur!

Uzun-uzadı və təkrarçılıq olaraq onun təkcə Azərbaycan xalqının, bütövlükdə isə SSRİ-də yaşayan millətlərin (ermənilərdən başqa) başına gətirdikləri müsibətlərdən yazmaq istəməsəm də, əslində, Qorbinin ölməsi deyil, gəbərməsi, gorbagor olması, hətta cəhənnəmə vasil olması yayın bu cəhənnəm istisində açığını desəm, ürəyim(iz)ə sərin su səpmiş oldu. Axı nəyə görə də su səpməsin ki, bu adam mənim millətimə, xalqıma qarşı amansız cəlladlıq edənlərin başında dayanırdı!!!

Məgər onun razılığı ilə deyilmiydi ki, Fransada, ABŞ-da yaşayan lobbist erməni millətçilərinin hədiyyə etdikləri şubaları, brilyantları, zəngin və antikvar pay-püşləri acgözlüklə mənimsəyən gorbagor arvadı Raisanın təhriki və istəyi ilə cənnət Qarabağımız qana boyandı, çapıldı, talandı?!

Təkcə Qorbaçovun ölümündən sonra bu məsələyə münasibət bildirən tərəflərin reaksiyalarına baxmaq kifayət edər ki, kimlər onun ölümündən kədərlənir, kimlər isə kədərlənmir. Misal üçün, Qərb dairələri kədərlənirlər və bu vasitə ilə etiraf edirlər ki, Qorbaçov onların bir zamanlar SSRİ-yə qarşı hazırladıqları layihənin bir hissəsidir. Yəni onun hakimiyyətə gələr-gəlməz "perestroyka" şüarı altındakı "demokratiyası", "aşkarlığı", "şəffaflığı" böyük bəlaların başlanğıc nöqtəsi oldu. Ona görə də Qərb bu gün onun meyitinə ağlayır. Bu yerdə rəhmətlik nənələrimizin nadürüstlərə tərəf işlətdikləri qarğışları da yadıma düşdü, - ağlar günə qalasınız, necə ki, qalmısınız. Nə isə, Allahın işinə qarışmayaq və keçək o biri məsələyə...

Maraqlıdır ki, bu məsələdə ermənilərin də münasibətləri kifayət qədər ilgincdir. Bütün dünyada nankor və xain genetika kimi tanınan ermənilərin münasibətləri təxminən belədir - "Qorbaçov Bakıda ermənilərin talanlara məruz qalmalarına şərait yaratdı", "Qorbaçov Sumqayıt hadisələrinin qarşısını ala bilmədi" və buna görə də ona lənət düşür. Amma həmin ermənilər unudurlar ki, Azərbaycan xalqını hiddətləndirən, Azərbaycan torpaqlarına göz dikən, 1988-ci ildən başlayaraq Qarabağda, eyni zamanda, digər ərazilərdə insanlarımıza qarşı qanlı terrorlara start verənlər də məhz onlar olublar. Yəni fakt budur ki, suçlu olan ermənilər həmin suçlarını həyata keçirmək üçün Mixail Qorbaçovdan xeyir-dua almışdılar, indi isə ona lənət oxuyurlar (?!) Və əgər bənzər lənətləri digər xalqların nümayəndələri etsəydilər, bundan təəccüb etməyə dəyməzdi, ermənilərin lənət oxumaları isə, sözün açığı, təəccübləndirir!

Qaldı Azərbaycan xalqının Qorbiyə lənət oxumaları, əslində, o diri ikən də lənətlərimizə məruz qalırdı və gec də olsa, həmin lənətlərimiz öz yerini tapdı və ümid edirik ki, Mişa ondan illər əvvəl cəhənnəmə yollanmış Raisanın yanında özünü kifayət qədər diskomfort hiss edəcək, əbədi cəhənnəmdə isə onu heç kim eşitməyəcək və bu dünyada əldə etdiyi ləl-cəvahiratı da onu xilas etməyəcək.

Hə, unutmamış onu da proqnozlaşdırım. Yaxşı olardı ki, onun gorunu gözlərdən-qulaqlardan uzaq yerlərdə qazsınlar, nə olar-nə olmaz, axı insanlar, xüsusilə, indiki dövrdə çox kinli olublar...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti çərçivəsində hazırlanıb.*

# Bir videolentin xatırlatması ilə...

***Çoxdan idi ki, hansısa bir toy videolentinə baxmırdım. Əslində, bu cür lentlərə tez-tez də baxmaq olmur. Çünki haradasa iki-üç il əvvəl çəkilmiş belə videolara baxarkən neçə-neçə əzizlərimizin, doğmalarımızın dünyasını dəyişib artıq aramızda olmaması ilə adam böyük ürək sıxıntısı yaşayır.***



Lakin bu videolentlər xalqımızın qədim və zəngin adət-ənənələrinin, mentalitetinin elə bir toplusudur ki, onları gənc nəslə göstərmək, hazırda həmin adət-ənənələrdən əsər belə qalmayan dövrdə övladlarımıza onları təbliğ etmək ən böyük borcumuzdur. Elə bu səbəbdən də videolentdə 10-dan çox doğmamın olmamasına, onları hər gördüyümdə sarsılmağıma baxmayaraq övladlarımla birlikdə həmin lenti səbirlə sonadək izlədim. Uşaqlar bir-birindən maraqlı adətlərimizi gördükcə heyrətlərini gizlədə bilmirdilər. Mən onların çoxsaylı suallarını ətraflı cavablandırır, adətlərimiz haqqında müfəssəl məlumat əldə etmələri üçün yaranan fürsəti həvəslə dəyərləndirirdim. Onlar isə bir-birilərinə belə deyirdilər: ay Allah, gör nələr varmış...



### 30-35 il öncə...

Bizi zamanın axarından ayıran cəmi bir qərinəlik kəsikdə çox məqamlar dəyişib. Bu, inkaredilməzdir. Artıq nə elçilik, sözalma, sözkəsmə, nişan, xınayaxdı, toylarımızdan, nə yas mərasimlərimizdən, nə də ki, hansısa bir bayram adətlərimizdən əsər-əlamət qalmayıb. Çox təəssüflə vurğulamaq istəyirəm ki, artıq uşaq, yeniyetmə və gənclərimiz bu adət-ənənələrimizi filmlərimizdən (onlar da çox az saydadır), bir də ki, bütün evlərdə olan belə videolentlərdən izləyir. Və izlədikcə də o qədər xoşları gəlir ki, onların unudulmasına yol açdığımız, səbəbkar olduğumuz üçün dərindən xəcalət çəkməkdən başqa əlacımız qalmır.

Nə üçün xəcalət çəkirik? Çünki o adət-ənənələrin unudulmasının səbəbkarları biz nəslin nümayəndələridir. Sinəmizi qabağa verib mübarizə aparmalıydıq vaxtında, qoymamalıydıq mərasimlərimizdəki adətlərimiz bu qədər silinib getsin, bu cür yadlaşsın. Günahkar bizik. Biz istəsəydik, belə olmazdı. Nə qalıb əlimizdə, nə?..

30-35 il ərzində bu qədər dəyişiklik olubsa, bəs yeni bir 30-35 ildən sonra nə olacaq? Azərbaycan toyu, ayrı-ayrı mərasimlərə aid adətlərdən yəqin ki, yalnız nağıl kimi danışacağıq nəvələrimizə. Bəs biz nəslin nümayəndələri dünyamızı dəyişəndən sonra necə? Övladlarımız öz övladlarına, nəvələrinə nə danışacaqlar? Beləliklə bir xalqa məxsus zəngin, bir-birindən maraqlı, qədim inanclarımızı özündə əks etdirən adətlərimiz onları gömdüyümüz torpağın altında çürümək də olacaqdır.

Videolenti izlədikcə o adət-ənənələr, bütün qohumların, qonşuların bir nəfər kimi iştirak etdiyi toy mərasimi adama çox qəribə gəlir. Uşaqlı-böyüklü hər kəsin üzündən yağan sevinc, səmimi şəkildə deyib-gülmələri o toylarla bugünkü toylarımız arasındakı fərqi gözlər önünə gətirir. Adətlərin necə yüksək səviyyədə-olduğu kimi yerinə yetirilməsi adamın qəlbinə "hanı o günlər" sualını doldurur. İnsanlar bir-birinə qarşı nə qədər səmimi imiş, İlahi. Onlar nə qədər şad, xürrəm imişlər. Görəsən, indi nə üçün toylarımızda adamların üzündə bu ifadələr olmur? 30-35 il öncə ilə sonranı ayıran, belə fərqli edən cəhətlər nələrdir?..

### Həyət toylarından restoranlara...

Öncə maraqlı və düşündürücü bir faktı söyləmək istəyirəm. Şəhər yerlərini anlamaq olar, həyətlərdə toy etmək bir qədər çətin başa gəlir. Axı indi ən ucqar, səfalı kəndlərimizdə hektarlarla həyəti, bağçası olanlar da toylarını gətirib yaşadıqları yerə yaxın şəhərlərdə, rayon mərkəzlərində edirlər. Səbəbkarı və günahkarı isə yenə biz özümüzük.

Həyət toyları zəhmət tələb edir. Çox işləməli, qonaqların qarşısına çıxmalısan. İşini o qədər planlı şəkildə qurmalısan ki, hər şey qaydasında olsun, tör-töküntü yaranmasın, hər kəs toydan razı getsin. Bu səbəbdən də insanlar zaman-zaman üz tutdular restoranlara. Öz rahatlıqları naminə adət-ənənələrimizi qurban etdilər. Axı həyət toylarını hamımız görmüşük. Bu cür toylar günlərlə işləmək, zəhmət çəkmək tələb edir. Toydan bir-iki həftə sonrayadək çalışmalısan ki, həyətin əvvəlki görkəmə gəlib çıxsın. Mağar qurmaqdan, ocaq yeri düzəltməkdən və ya qazanların altına qaz xətti çəkməkdən, odun yarmaqdan tutmuş bazarlığa, digər işlərin hər biri üçün vaxt ayırmalı, onları ardıcıl şəkildə yerinə yetirməli idin. Bütün bunlar da yəqin ki, insanlara zaman-zaman yorucu gəldi və onlar toyların yerini dəyişdilər. Həyətdən, mağardan restoranlara olan yollarda adətlərimizi itirə-itirə getdilər.





Təbii ki, mağar toylarındakı qələbəlik, səmimilik, şadlıq evlərində, restoranlarda olmur. Səbəbini belə izah edərdim ki, restoranlara mağar toylarındakı kimi bütün qohum və qonşuları, dost-tanışları sığışdıra bilmirik. Restoranlar öz xidmətlərini elə baha qiymətə təklif edirlər ki, biz də az adamla bu qiymətlərin öhdəsindən gəlməyə çalışırıq. Beləliklə başlayırıq toyda iştirak edənləri siyahıya almağa. Həmin bu siyahıda qohumluq-qonşuluq əlaqələri, adət-ənənələrimiz bir-bir məhv olaola gedir. Bütün problemlər həmin siyahılardan başlanır. Uşaqlı-böyüklü hamını çağıra bilmirsən, çünki onların toya yazdıracaqları pul sənin xərcini ödəmir. Belə olanda hər evdən bir-iki nəfər nəzərdə tutursan və heç bir xəcalət çəkmədən, utanmadan çağırıb ən yaxın qohumlarına deyirsən ki, sizin ailədən iki nəfər nəzərdə tutmuşuq, filankəs, bir də filankəs, gələrsiniz. Onlar da nə etsinlər, bu cür də gəlirlər. Nəticə nə olur?

### Bibioğlusuz, əmiqızısız, dayıoğlusuz, xalaqızısız toylar...

Dəfələrlə şahidi olmuşam ki, ən yaxın qohumlar bir-birinin toyunda iştirak etmirlər. Hansı ki, gənc nəslin adət-ənənələrimizi əxz etməsi, onları görüb sabah yaşatması üçün toydan gözəl məqam ola bilməz.

Restoranın baha olması, bizlərinsə zəhmət çəkməmək üçün həyətlərimizdə toy keçirməməyimiz səbəbindən ailə quran gəncin bibioğlusu, əmiqızısı, dayıoğlusu, xalaqızısı və sair yaxın dost-tanışlar toyda iştirak edə bilmirlər. Bu, dəhşətdir, dəhşətdən çox faciədir ki, yaxın qohumlar övladının ən gözəl günündə onun yanında ola bilmirlər. Belə olanda nə baş verir? Bəy və ya gəlin özünü toy salonunda tək hiss edir. Axı gözlərimiz həyata açıb görmüşük ki, gəlinin, bəyin yanında yeniyetmə, gənclər olub, deyib-gülüblər, rəqs edib şənləniblər.

*Ardı Səh. 15*

# Bir videolentin xatırlatması ilə...





Əvvəli-Səh-14



Lakin müasir toylarımızda gəlin də, bəy də təklənib oturur bir kənarda. Çox az sayda özləri yaşda adam olduğuna görə kənardan da hiss olunur ki, toy sönük keçir. Çünki toyları şənlikli edən gənclərdir. Onlar yorulmaq bilmirlər, lakin yaşlı adamlar saatları sayırlar ki, vaxt tamam olsun, durub gedələr evlərinə.

Toylara uşaqların gətirilməməsi son vaxtlar bir dəbə çevrilib. Bu isə, sözün həqiqi mənasında, yeni bir faciənin başlanğıcıdır. Bir uşaq ən yaxın qohumunun toy mərasimində iştirak etmirsə, onun toy haqqında təəssüratları necə yarana bilər? Bəs o, hansı yaşda toy anlayışının nə demək olduğunu dərk edəcək?

Nəticə etibarilə, insanın özünün özünə etdiyini kənardan heç kim edə bilməz. Toylarımızdakı qədim adət-ənənələrə, qohumluq əlaqələrimizə, uşaq, yeniyetmə-gənclərimizin mənəvi inkişafına baltanı bizlər çalmışıq. Rahatlığımız naminə toylarımızı mağarlardan şadlıq saraylarına aparıb qohumları özümüzdən kənarlaşdırmışıq. Öz əllərimizlə adət-ənənələrimizi torpağa gömmüşük. Ayrı-ayrı mərasimlərdəki adətlərin keçirilməməsinə göz yummuşuq. Müasirliyin həyatımıza gətirdikləri ilə çox tez barışmışıq.

Bir ağsaqqal, bir ağbirçək kimi qarşıya çıxıb, "ay camaat, dayanın" deyən olmayıb. "Siz bu xislətlə haraya qədər gedəcəksiniz" deyən olmayıb. "Sizə kim ixtiyar verir ki, bu adətləri bu günə qoyursunuz" deyən olmayıb. Elə bu səbəbdən də indi bu gündəyik.

**Nə sözümüz o söz, nə xınamız o xına,**
**nə nişanımız o nişan, nə də toyumuz o toydur...**

30-35 ilin videolentinə tamaşa etdikcə sanki orada gördüklərim "dil açıb" bu sualları verirdi mənə: hanı o sözlər, nişanlar, xınalar, toylar?

Həqiqətən hanı o elçilik, sözalma, sözkəsmə, o nişan? Bir qızı atasından, yaxınlarından almaq üçün bir qapıya oğlan adamı düz dörd-beş dəfə ayaq döyürdü. Birinci qadınlar qızın anası ilə danışmağa gedirdilər. Razılıq olardısa, ikinci dəfə kişilər gedir, evin ağsaqqalı ilə söz kəsirdilər. Onlar da özlərini ağır salır, filan vaxtı gəlin, bir də oturaq, danışaq deyirdilər. Üçüncü dəfə oğlan evi gedib qızın sözünü alırdı. Dördüncü dəfə isə nişan mərasimi keçirilirdi.

İndi isə bütün məsələlər telefon vasitəsilə həll olunur. Vur-tut bir dəfə kişilər yığışıb qız evinə gedərgetməz, söz alındı, keçirlər nişana, vəssalam. Müasir dövrdə qədimdən gələn ikirəngli şirin çay artıq çox nadir halda içilir. İndi həmin şirin çayların yerini bəzi hallarda buradan oraya açılan və üzərində, necə deyərlər, quş südü də olan süfrələr əvəz edir. Hansı ki, bir ikirəngli şirin çay illər öncə bütün bu lazım olmayan və israf süfrələri gözəl şəkildə əvəz edirdi.

Nişan mərasimlərini də evlərimizdən restoranlara köçürmüşük. İsrafçılığın son həddi olan nişan mərasimlərini həm də o qədər müasirləşdirmişik ki, əvvəlki o sadə, yaddaqalan, adət-ənənə dolu nişanlardan əsər-əlamət qalmayıb. Hansı ki, iki gəncin birləşməsini kiçik, lakin maraqlı bir mərasimlə yaddaqalan etmək bəhs edər.

Xınayaxdı mərasimlərimiz haqqında danışanda isə, vallah, adamın ürəyinə sıxıntı çökür. Elə tək onu demək kifayətdir ki, biz xınayaxdı mərasimlərimizin yaraşığı olan haxıştalarımızı "yüksək-yüksək təpələrə ev qurmasınlar, uzaq-uzaq məmləkətə qız verməsinlər"ə dəyişmişik. Bunu xınayaxdılarımıza tətbiq edənlərə vaxtında qarşı çıxmadığımız üçün nəticə etibarilə, bütün qızlarımız öz xınasında hökmən bu mərasimi keçirməyə üstünlük verirlər.

Xınayaxdı mərasimlərimiz də evlərimizdən restoranlara köçürülüb. Ta qızın qapısına xeyli qalmışdan kollektiv şəkildə-oğlanın bacısının, xala, bibi, dayı, əmiqızılarının, yaxın qohum-qonşuların səsləndirdiyi haxıştalar eşidilmir. İndi bu haxıştaları təhrif olunmuş şəkildə xına təşkilatçılarının heç tanımadığımız işçiləri bizim üçün səsləndirir...

Toylarımız isə göz önündədir. Yuxarıda da dediyim kimi, toylarımız tamamilə "müasirliyə" uğrayıb. O toylardan əsər belə qalmayıb. Milli musiqimizdən çox qulaqbatırıcı xarici musiqilər səslənən, milli mətbəximizdən çox tanış olmayan mətbəxlərin menyuları təklif olunan, gənclərin edəcəyi rəqsləri artıq yaşlıların etdiyi, yallılarımızın çox halda yoxa çıxdığı, adətlərimizin itib-batdığı toylarımızın nəyindən danışaq?.. Bu videolentdəkilərin hansı var indi ki, ondan danışaq...

### Yenə də gec deyil

Nə etmişiksə, biz etmişik. Adət-ənənələrimizi bu vəziyyətə gətirib çıxarmışıq. Düşünməmişik ki, illər sonra övladlarımıza verməyə əllərimizdə heç nə qalmayacaq. Hər birimizin övladı evlərimizdəki videolentlərə baxıb bizə onlarla sual yağdıracaq: indi nə üçün belə deyil, nə üçün indi ta belə etmirsiniz, niyə ta bu yoxdur kimi suallar. Bu suallara bizlər cavab verməli olacağıq. Bəs nə cavab verəcəyik? Övladımızın qarşısında başıaşağı qalmaqdan başqa çarəmiz olacaqmı?

Onlar həmin dövrləri bəyənirlər, o toylar onlara xoş təsir edir. Eynilikdən gözləri yorulub, fərqlilik görmək istəyirlər. Həmin fərqlilik isə bizim bir-birindən gözəl adətlərimizdir. Həmin adətləri biz sıradan çıxardığımız kimi, biz də bərpa edə bilərik. Sadəcə, bunu istəmək lazımdır. Özümüz üçün istəməsək də, övladlarımız, yetişməkdə olan gələcək nəsil üçün, onların zəngin mənəvi keyfiyyətlərə malik olmaları, məxsus olduqları xalqın adətlərini bilmələri naminə etməliyik. Bu, bizim həm övladlarımız qarşısında, həm də Vətənimiz qarşısında olan borcumuzdur.

Nə qədər ki, gec deyil, qayıtmalıyıq o toylarımıza. Şəhərdə də, kənddə də bacardığımız qədər adətlərimizi tətbiq etməyə çalışmalıyıq. Onların məhv olmasına yol verməməliyik. "Müasir" elçilik, nişan, xınayaxdı, toy istəyində olanlara qarşı çıxmalıyıq. Bəzən bizimlə razılaşmayan, öz toy mərasimində həmin "müasirlikləri" görmək istəyində olan övladlarımızla söhbət aparmalı, onları maarifləndirməli, evlərimizdəki videolentləri izlətməklə adət-ənənələrimizi yaşatmağa borclu olduğumuzu anlatmalıyıq.

Ən yaxşı hal isə bu olar ki, rejissorlarımız bax bu cür videolentlər əsasında yeni filmlər çəksinlər. Çünki gün gələcək ki, həmin videolentlər də olmayacaq. Onlar nə qədər ki, evlərimizdədir, onlardan istifadə edib çox gözəl filmlər hazırlamaq olar. Bu, uşaqlarımızın, yeniyetmə-gənc övladlarımızın düzgün tərbiyə edilməsində əvəzsiz vasitə ola bilər...

Nə qədər gec deyil, bir düşünək...

***Mətanət MƏMMƏDOVA***

SƏS
1 sentyabr
2022-ci il

# Müntəzəm isti çay və ya qəhvə içmək nəyə ziyandır?



***Müntəzəm olaraq isti çay və ya qəhvə içmək yemək borusu xərçəngi riskini artırır. SİA bu barədə Türkiyə saytlarına istinad edir. "The National News"un yazdığına görə, Kembric Universitetində bu yaxınlarda aparılan araşdırmalar göstərib ki, isti içkilərdən istifadə insanın özofagus xərçənginə tutulma riskini demək olar ki, üç dəfə artırır.***

Tədqiqatçılar İngiltərədə 500.000-ə yaxın insanın sağlamlıq qeydlərini təhlil edərək daha çox qəhvə içən insanlarda xərçəng riskinin artdığını aşkar ediblər. Alimlər qəhvə və çay istehlak edənlərin isti içki içməyənlərə nisbətən 2,8 dəfə daha yüksək riskə malik olduğunu müəyyənləşdiriblər.

Bundan əlavə, isti qəhvə içənlərin 5,5, ılıq qəhvə içənlərin isə 2,7 dəfə daha çox risk altında olduğu söylənilib. Alimlərin fikirlərinə görə, isti içkilər hüceyrələrin daim yenilənməsinə səbəb olur və bu da hüceyrələri xərçəngə çevirə bilir.

Memorial Sloan Kettering Xərçəng Mərkəzinin onkoloq və qastroenteroloqu Smita Coşi hər kəsə qəhvə və ya çay içərkən onun bir neçə saniyə ərzində soyumasını gözləməyi tövsiyə edir. Qeyd edək ki, tədqiqat üçün sorğuda bir insanın nə qədər qəhvə içdiyinə dair məlumatlar yer almır.

# Ronaldoya ŞOK: Komanda yoldaşları klubdan getməsini istəyirlər




"Mançester Yunayted"in futbolçuları komanda yoldaşları Kriştiano Ronaldonun klubdan ayrılmasının tərəfdarıdırlar. Qol.az xəbər verir ki, bu barədə ESPN məlumat yayıb. Oyunçular düşünürlər ki, 37 yaşlı hücumçu komandada mübahisə mənbəyidir. Ona görə də futbolçular Ronaldonun "Mançester Yunayted"dən getməsini istəyirlər.

Qeyd edək ki, Ronaldo ötən ilin yayında "Mançester Yunayted" ilə 2+1 illik müqavilə imzalayıb. O, bu mövsüm Premyer Liqada 4 matça çıxıb və heç nə ilə yadda qalmayıb.

# Bakıda 19 yaşlı gənc tanışını bıçaqla vurub öldürüb



Bakıda 19 yaşlı gənc qətl törədib. Bu barədə Nərimanov Rayon Prokurorluğu məlumat yayıb. Bildirilib ki, avqustun 31-i saat 04 radələrində Nərimanov rayonu, Qarabağ küçəsində 1989-cu il təvəllüdlü Ceyhun Sədyarovun öldürülməsi barədə rayon prokurorluğuna məlumat daxil olub.

Aparılmış araşdırmalarla zərərçəkmişin tanışı, 2003-cü il təvəllüdlü Ömər Cəfərlinin şəxsi münasibətlər zəminində aralarında yaranmış mübahisə zamanı bıçaqla çoxsaylı xəsarətlər yetirərək Ceyhun Sədyarovu qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilib.

Faktla bağlı Nərimanov Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adamöldürmə) maddəsi ilə cinayət işi başlanıb. Ömər Cəfərli şübhəli şəxs qismində tutularaq istintaqa cəlb edilib.

# Zeytun yağı istənilən növ xərçəng riskini 31 faiz azaldır

***Məlumdur ki, istənilən xəstəliyin qarşısının alınması onun müalicəsindən daha asandır. Xoşbəxtlikdən, bəzi qidalar antioksidant fəallığı sayəsində xərçəngin inkişafının qarşısını ala bilər. SİA xəbər verir ki, bu təsirlər xüsusilə zeytun yağını müntəzəm istifadə edən insanlarda nəzərə çarpır. Zeytun yağının tərkib hissəsinin bir neçə növ xərçəngin inkişafına qarşı qorunmanı təmin etdiyinə dair bir çox sübutlar var.***



"Zeytun yağının mütəmadi qəbul edilməsi istənilən xərçəng növünün inkişafının ehtimalının 31 faiz azalmasına səbəb olur. Zeytun yağının müsbət təsiri əsasən onun monodoymamış yağ turşuları, skvalen və fenol birləşmələrlə zəngin müstəsna tərkibi ilə izah olunur. Onların güclü antioksidant xüsusiyyətləri təmizlənmə səbəbindən hüceyrə oksidləşdirici stresi və DNT zədələnməsini məhdudlaşdırır və kanserogenezlə əlaqəli mühüm siqnal yollarına təsir edir", - deyə diyetoloq İqor Strokov bildirir.

45 tədqiqatın meta-analizi göstərib ki, qorunma ən çox süd vəzisi, mədə-bağırsaq və sidik yolları xərçənglərində əhəmiyyətlidir. Növbəti tədqiqatlar xərçəngin qarşısının alınmasında zeytun yağının rolunun daha dərindən anlaşılmasını təmin edə bilər. Sağlamlıq üçün bu cəlbedici üstünlüklər zeytun yağını populyar bitki yağı edib. Tədqiqatçılar zeytun yağının bütün faydalarından istifadə etmək üçün onu çiy şəkildə istifadə etməyi tövsiyə edirlər.

*Baş redaktor:*
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 3600